DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 06 (380) / İYUN 2023-CÜ İL



## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İslam dininin əlamətdar mərasimlərindən olan Qurban bayramı özündə xeyirxahlığı, birlik və bərabərliyi, insanın ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq niyyətini əks etdirir.

Milli-mənəvi və dini dəyərlərinə həmişə sadiq olan Azərbaycan xalqı bütün dünya müsəlmanları ilə birlikdə Qurban bayramını qardaşlıq, humanizm və həmrəylik rəmzi kimi yüksək əhval-ruhiyyə ilə qeyd edir. Bu günlərdə həm Həcc ziyarətində, həm də ölkəmizin hər yerində dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Ümidvaram ki, bu mübarək bayram günlərində dua və dilәkləriniz gerçəkləşəcək, Uca Yaradan mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 27 iyun 2023-cü il

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ PAYLAŞIM EDİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Qurban bayramı münasibətilə paylaşım edib.

Paylaşımda deyilir:

"Azərbaycan xalqını və dünya müsəlmanlarını müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Allah bütün qurbanları qəbul etsin!"



# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



İyunun 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı İndoneziyanın "Nahdlatul Ulama" qeyri-hökumət təşkilatının nümayəndə heyəti ilə görüşüb.

Nümayəndə heyətinin tərkibində təşkilatın idarə heyətinin rəhbər şəxsləri, İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hildi Hamid yer alıblar.

Görüş Azərbaycanın din siyasəti ilə tanışlıq və bu sahədə təcrübə mübadiləsinin aparılması məqsədi daşıyıb.

DQİDK sədri iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək İndoneziyanın Ermənistanın Azərbaycana qarşı təcavüzünün beynəlxalq təşkilatlarda pislənilməsi və ərazi bütövlüyümüzün müdafiəsi ilə bağlı qəbul edilən sənədləri hər zaman dəstəklədiyini söyləyib. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində birgə fəaliyyət göstərilməsi istiqamətində görülən işləri qeyd edərək, eyni zamanda torpaqlarımızın azad edilməsi uğrunda 44 günlük Vətən müharibəsi gedişində ölkəmizin ədalətli mövqeyinin müdafiə olunduğunu vurğulayıb.

Daha sonra qonaqlara Azərbaycanın nümunəvi dövlət-din modeli, dinə dövlət qayğısı, habelə dinlərarası və mədəniyyətlərarası dialoqun təbliği istiqamətində görülən işlər barədə məlumat verilib.

Komitə sədri bildirib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasətinin davamı olaraq, Azərbaycanda milli-mənəvi dəyərlərimizin qorunması, İslam dininə hörmət və ehtiramın gücləndirilməsi, tolerantlıq mühitinin daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülüb. Prezident cənab İlham Əliyev müxtəlif dinlərə aid tarixi-memarlıq abidələrinin, ibadət və inanc yerlərinin təmiri və bərpası, dini qurumlara maddi yardımların ayrılması ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalayıb. Komitə sədri DQİDK-nın tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitununun yaradıldığını, bu uzaqgörən addımların ölkəmizdə dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsi baxımından önəmini vurğulayıb.

Dövlət Komitəsinin fəaliyyət istiqamətləri barədə də danışan DQİDK sədri əksər müsəlman ölkələrinin müvafiq qurumları ilə uğurlu əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirib. M.Qurbanlı radikalizmə qarşı mübarizə sahəsində görülən işlərə də toxunub, bu istiqamətdə maarifləndirici tədbirlərlə yanaşı, yüzlərlə kitabın nəşr edildiyini, sənədli film və videoçarxların çəkildiyini, o cümlədən televiziya verilişlərinin hazırlandığını diqqətə çatdırıb.

Təşkilatın idarə heyətinin sədr müavini Zulfa Mustofa təmsil etdiyi qurum haqqında məlumat verərək onun 100 milyona yaxın üzvünün olduğunu, bu baxımdan dünyanın ən böyük İslam təşkilatlarından biri hesab edildiyini bildirib. Qonaq Azərbaycanın öz təklif və təşəbbüsləri ilə ümumbəşəri dəyərlərin təbliği və təşviqinə, qlobal xarakterli problemlərin həllinə dəyərli töhfələr verdiyini də vurğulayıb. Azərbaycanın müvafiq sahədə fəaliyyətini yüksək qiymətləndirərək, bu təcrübənin öyrənilməsinin və qarşılıqlı səfərlərin vacibliyini qeyd edib.

Görüşün sonunda nümayəndə heyətinin üzvlərinə Dövlət Komitəsinin nəşr etdirdiyi kitablar hədiyyə edilib.

***

İyunun 14-də DQİDK-nın sədr müavini Səyavuş Heydərov "Yehovanın Şahidləri" Avropa Assosiasiyasının sədri Toni Breys və qurumun nümayəndəsi Mariyano Makiyas Quzman ilə görüşüb.

S.Heydərov əvvəlcə qonaqları Azərbaycandakı nümunəvi dövlət-din münasibətləri, multikultural mühit, müxtəlif dini konfessiyalara məxsus icmalar arasında mövcud olan tolerant münasibətlər barədə məlumatlandırıb. Bildirib ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində əldə olunan qələbəmizdə ən böyük rolu milli, dini kimliyindən asılı olmayaraq, xalqımızın hər bir üzvünün müqəddəs amal ətrafında sıx birləşməsi oynayıb.

Sədr müavini diqqətə çatdırıb ki, qloballaşma fonunda dünyada getdikcə gərginləşən bir çox problemlə yanaşı, mənəvi sahədə də böhranlar baş qaldırır ki, burada din faktorundan siyasi məqsədlər üçün istifadə özünü qabarıq göstərir. Dinin siyasiləşərək çox zərərli silaha çevrilməsi tendensiyası həm İslam, həm də Xristianlıq üçün potensial təhlükə ifadə edir. Ermənistanın da, öz növbəsində dini siyasi alətə çevirmə cəhdlərinə diqqəti çəkən S.Heydərov qeyd edib ki, bu meyillər xristian təəssübkeşliyinə, nəticə etibarilə dünyada "xristianofobiya"ya səbəb ola bilər. O bildirib ki, ölkəmizdəki dini etiqad azadlığının qorunub saxlanılması və dini təhlükəsizliyin yüksək səviyyədə təmini



bizim bu istiqamətdəki siyasətimizin ən mühüm prioritetləridir.

Sədr müavini din ilə siyasətin qarışdırılaraq sivilizasiyalararası toqquşmaya səbəb olmaması, mənəvi dəyər çərçivəsində qalaraq insanların ruhani tələbatlarını ödəməsi istiqamətində birgə səylərin aktuallığını bir daha vurğulayıb.

"Yehovanın Şahidləri"nin Avropa Assosiasiyasının sədri Toni Breys Azərbaycan dövlətinin təmsil etdiyi qurum ilə daim dialoqa hazır olmasına, icma üzvlərinin burada bütün digər dinlərin nümayəndələri kimi bərabərhüquqlu fəaliyyət göstərmələri üçün şəraitin yaradılması, eyni zamanda dini icmaya göstərilən diqqət və qayğıya görə məmnunluğunu ifadə edib.

İcmanın fəaliyyət istiqamətləri ilə əlaqədar bir sıra nüansların müzakirə edildiyi görüşün sonunda Toni Breys qaldırılan məsələlərin həlli istiqamətində müvafiq köməkliyin göstərilməsi ilə bağlı qarşılıqlı əlaqələrin daha da genişləndirilməsinə verilən dəstəyə görə minnətdarlığını bildirib.

# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN SƏUDİYYƏ ƏRƏBİSTANINA RƏSMİ SƏFƏRİ BU ÖLKƏNİN KİV-İNDƏ İŞIQLANDIRILIB






Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığının (SƏK) İslam Məsələləri, Çağırış və İrşad Nazirliyinin (nazirlik) dəvəti ilə 30 may - 3 iyun tarixlərində sözügedən ölkədə səfərdə olub.

Səfər çərçivəsində baş tutan rəsmi görüşlər, eləcə də Komitə sədrinin Mədinə şəhərinə səfəri zamanı verdiyi müsahibə SƏK-in "Saudi Press Agency", "Shula News", "Sabq.org", "Arab news" kimi kütləvi informasiya vasitələrində işıqlandırılıb. Yerli media portalları tərəfindən yayılan məlumatlarda görüş zamanı DQİDK sədri Mübariz Qurbanlının İslam həmrəyliyinin, vəhdətin önəmi, həqiqi islami dəyərlərin qorunub saxlanılmasının vacibliyi barədə danışdığı vurğulanıb. Eyni zamanda Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Səudiyyə Ərəbistanı Krallığının İslam Məsələləri, Çağırış və İrşad Nazirliyi arasında imzalanan Anlaşma Memorandumu barədə ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, Memorandum iki ölkə arasında ekstremist ideologiya, terrorizm və ekstremizm problemləri ilə mübarizə, təcrübə mübadiləsi sahəsində əməkdaşlığı genişləndirmək, bu istiqamətdə hər iki ölkədə konfranslar, seminarlar və görüşlər təşkil etmək məqsədi daşıyır.

# «HEYDƏR ƏLİYEV İLİ» ÇƏRÇİVƏSİNDƏ: «AZƏRBAYCANIN DÖVLƏT-DİN MODELİ» MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

## *DQİDK-nın yaradılmasının 22 illiyi qeyd olunub*





İyunun 21-də "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yaradılmasının 22 illiyinə həsr olunmuş "Azərbaycanın dövlət-din modeli" mövzusunda konfrans keçirilib.

Dini qurumların və digər ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbiri DQİDK-nın sədri Mübariz Qurbanlı açaraq qeyd edib ki, Ulu Öndərimiz dövlət-din münasibətlərinin tənzimlənməsi məqsədilə 2001-ci il iyun ayının 21-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə Sərəncam imzalayıb. O vurğulayıb ki, bu gün kü konfransda Komitənin keçdiyi 22 illik inkişaf yoluna bir daha nəzər salınacaq.

Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin, zəngin tolerantlıq ənənələrimizin ölkədə və beynəlxalq aləmdə təbliği istiqamətində ardıcıl fəaliyyəti Dövlət Komitəsinin qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsinə əlverişli zəmin yaradır. Komitə sədri, həmçinin DQİDK-nın fəaliyyətinin genişləndirilməsi, işgüzar kollektivin formalaşması və ixtisaslı kadr potensialı ilə gücləndirilməsinin önəmi barədə danışıb. Qeyd edilib ki, din sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, multikultural və tolerantlıq ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi və s. istiqamətlərdə fəaliyyət göstərən Dövlət Komitəsinin texniki heyət də daxil olmaqla 179 ştat vahidi mövcuddur. Əsasən gənclərdən ibarət olan DQİDK kollektivinin bu günə qədər 43 əməkdaşı dövlət başçısı tərəfindən medallarla təltif edilib, 47 əməkdaşı ilahiyyat, dinşünaslıq ixtisasları üzrə təhsil alıb, 6 nəfərin fəlsəfə üzrə doktor elmi dərəcəsi var. Komitənin tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 71, Mənəvi Dəyərlərin Təbliği Fondunda (MDTF) isə 15 nəfər əməkdaş fəaliyyət göstərir.

Çıxışında böyük Qələbəmizlə nəticələnən 44 günlük Vətən müharibəsinə toxunan Komitə sədri vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə məscid tikintiləri və dini abidələrin bərpası işi dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi diqqətindədir.

Daha sonra Komitənin yaradılmasının 22 illiyi ilə bağlı kollektivi təbrik edən M.Qurbanlı qarşıda duran vəzifələrdən danışıb.

Sədr müavini Gündüz İsmayılov təqdimatla çıxış edərək, DQİDK-nın həm 22 ildə keçdiyi yola, həm də bu günün reallıqları çərçivəsində üzərinə düşən vəzifələrə diqqəti çəkib. Qurumun insan resursları sahəsində statistik məlumatlarını bölüşən sədr müavini Komitənin iş yükü və səlahiyyətlərinin artırılması səbəbilə əməkdaş sayının çoxaldılmasının zamanın tələbi olduğunu deyib. G.İsmayılov çıxışında dini qurumlarla işin qurulması, onların dövlət qeydiyyatına alınması, dinşünaslıq ekspertizasının aparılması, dini maarifləndirmə fəaliyyətinin təşkili, beynəlxalq, eləcə də ictimaiyyətlə əlaqələrin inkişafı və digər sahələrlə yanaşı, Komitə tabeliyindəki AİI və MDTF-nin bu illər ərzində gördüyü işlərə toxunub. Bildirib ki, müxtəlif qurumlarla cari il ərzində 172 maarifləndirmə tədbiri keçirilib, bunlardan 55-i hüquq-mühafizə orqanları ilə birgə təşkil edilib. G.İsmayılov İslam dininə aid ibadət yerlərində vakant vəzifələrin tutulması ilə bağlı müsahibənin statistikasını da açıqlayıb. Onun sözlərinə görə, ilk vakansiya elanı zamanı ümumilikdə 270 nəfərin sənədi qəbul edilib və onlardan 133-ü müsahibədən keçib. Müvəffəqiyyət qazananların 112-i müvafiq vəzifələrə təyinat alıb. Təşkil edilən ikinci müsahibə zamanı isə 254 namizəddən 66-ı müsahibədən keçib və 55 nəfəri rəsmi din xadimi kimi fəaliyyətə başlayıb. Ötən müddət ərzində 181 din xadimi işindən uzaqlaşdırılıb.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini Qəmərxanım Cavadlı Dövlət Komitəsinin öhdəsinə düşən vəzifələri ötən 22 il ərzində yüksək səviyyədə həyata keçirdiyini bildirib. Dövlət Komitəsi ilə QMİ arasındakı uğurlu əməkdaşlıq əlaqələrinə diqqət çəkən Q.Cavadlı din xadimləri ilə dövlət arasında əlaqələndirici rol oynaması, habelə tolerant və multikultural dəyərlərin ölkə hüdudlarından kənarda təbliği baxımından Komitənin fəaliyyətinin təqdirəlayiq olduğunu qeyd edib.

Rəhbərlik etdiyi qurumla Dövlət Komitəsinin birgə əməkdaşlığına toxunan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov həyata keçirilən layihələrin önəmindən danışıb. Tolerant, multikultural dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində bundan sonra da qarşılıqlı əlaqələrin uğurla davam etdiriləcəyinə əminliyini ifadə edib.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev DQİDK kollektivinin ideoloji sahədə yüksək peşəkarlıqla çalışaraq ölkəmizdə formalaşan nümunəvi dövlət-din münasibətlərinin daha da inkişafında bacarıqlarını əsirgəmədiklərini bildirib. Həmçinin DQİDK və tabeliyindəki MDTF-nin təmsil etdiyi quruma göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib.

AİI-nin rektoru Aqil Şirinov DQİDK-nın fəaliyyətindən bəhs edərkən dövlət başçısının bu sahəyə xüsusi diqqətinin təzahürü olaraq 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Komitə tabeliyində AİI-nin yaradılmasının və institutun yeni tədris binası ilə təmin olunmasının önəmini qeyd edib. AİI ilə Komitə arasındakı sıx kommunikativ fəaliyyətə də toxunan rektor bildirib ki, dini təhsil sahəsindəki boşluqların aradan qaldırılması, İnstitutun işinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələrin qurulması və inkişafı istiqamətlərində Komitə kollektivi heç bir zaman dəstəyini əsirgəmir.

MDTF-nin icraçı direktoru Mehman İsmayılov ölkə rəhbərliyinin din sahəsində həyata keçirdiyi uğurlu siyasət nəticəsində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimləndiyini, ölkədəki tolerantlıq mühitinin qorunub saxlanıldığını nəzərə çatdıraraq bu sahənin inkişafına DQİDK-nın layiqli töhfələr verdiyini deyib.

Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili və Azərbaycan Bəhailəri Dini Mərkəzinin katibi Ramazan Əsgərli Dövlət Komitəsinin dini qurumların işinin dəstəklənməsi istiqamətindəki uğurlu fəaliyyətinə diqqət çəkərək, dini icmaları narahat edən məsələlərin dərindən öyrənilməsi, dini durumdakı neqativ halların aradan qaldırılması məqsədilə həyata keçirilən kompleks tədbirlərin əhəmiyyətini vurğulayıblar.

Sonda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 22-ci ildönümünü ilə bağlı Dövlət Komitəsində qulluq keçən və xidmətdə fərqləndiyinə görə Komitə sədrinin əmri ilə təltif olunan əməkdaşlara "Fəxri Fərman"lar təqdim edilib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ LƏNKƏRANDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyunun 8-də Lənkəran, Astara və Lerik rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Lənkəran şəhərindəki abidəsi ziyarət edilib. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Qəbula gələn vətəndaşlar dini təyinatlı ədəbiyyatın nəşri, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, dini qurumların dövlət qeydiyyatına alınması, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.



# “MÜASİR DÖVRDƏ BİRGƏYAŞAYIŞIN ÇAĞIRIŞLARI VƏ PERSPEKTİVLƏRİ”



İyunun 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Bəhailəri Dini Mərkəzinin birgə təşkilatçılığı ilə “Müasir dövrdə birgəyaşayışın çağırışları və perspektivləri” mövzusunda konfrans keçirilib.

Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalar arasındakı münasibətlər, əməkdaşlıq əlaqələri və birgəyaşayış mədəniyyətinin perspektivlərinə həsr olunan tədbirdə Dövlət Komitəsinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) rəhbərliyi, Milli Məclisin deputatı, o cümlədən Azərbaycanda fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini icmaların nümayəndələri iştirak ediblər.

Azərbaycan Bəhailəri Dini Mərkəzinin katibi Ramazan Əsgərli konfransı giriş sözü ilə açaraq mövzunun əhəmiyyətindən və aktuallığından bəhs edib. Bildirib ki, ölkədəki tolerantlıq mühiti, dinlərarası münasibətlərin tənzimlənməsi, hətta ölkənin regionun münaqişələr alovunda yandığı bir vaxtda sabitlik adası kimi saxlanması və gələcək inkişaf yoluna çıxarılması birbaşa Ulu Öndər Heydər Əliyevin siyasi dühasının nəticəsi idi. R.Əsgərli cəmiyyətdə sülh və barış içində birgəyaşayışın, sosial uzlaşmanın və birliyin təməl şərtləri barədə danışaraq əsas konsepsiyaları - daha çox insanın vətəndaş olaraq töhfə verə biləcəyi mühitin yaradılması və ümumi ideya ətrafında birləşməsi; qadınların rolunun artırılması; gənclərin bütün bu proseslərə sadəcə cəlb edilməsi yox, ümumiyyətlə, prosesin əsl qəhrəmanına çevrilməsi; ailənin sosial vahid və təlim-tərbiyə mühiti kimi rolunun dəyərləndirilməsi və s. konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Toplantıda çıxış edən Milli Məclis sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli deyib ki, Azərbaycanın geosiyasi vəziyyəti, böyük dövlətlərin ölkəmizə marağı, bu maraqlar altındakı məkrli niyyətlər, bu niyyətlər qarşısında güclü olmaq zərurəti dinindən, məzhəbindən asılı olmayaraq hər bir vətəndaşın üzərinə məsuliyyət qoyur.

F.İbrahimli qeyd edib ki, müxtəlif illərdə qoyulan qadağalara və siyasətə baxmayaraq, Azərbaycan xalqı öz dinini və milli-mənəvi dəyərlərini qoruyub saxlayıb. Beynəlxalq hüququn normalarına söykənən Azərbaycan Konstitusiyası milliyyətindən asılı olmayaraq, hər bir vətəndaşın dini etiqad azadlığını tanıyır. Qanunla hər kəsə öz iradəsi ilə istədiyi dini seçməyə və azad şəkildə ibadət etməyə icazə verilir.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, qloballaşan dünyada baş verən bütün proseslər, xüsusilə də ekoloji və demoqrafik dəyişikliklər bu gün dinlərə baxışı yenidən gündəmə gətirir. Müasir dövrdə cərəyan edən hadisələr insanları birgəyaşayışın yeni prinsip və formalarını araşdırıb tapmağa sövq edir.

M.Qurbanlı diqqətə çatdırıb ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qarşısında qoyduğu əsas məsələlərdən biri dövlət-din münasibətlərinin tənzimlənməsi idi. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Konstitusiyamızda dini etiqad, eləcə də söz və vicdan azadlığı ilə bağlı müddəalar dəqiq müəyyənləşdirilib. Azərbaycanda müsəlmanlar, xristianlar, yəhudilər və digər dini icmaların nümayəndələri birgə yaşayır və dövlət tərəfindən bu sahəyə xüsusi həssaslıqla yanaşılır. Komitə sədri Prezident İlham Əliyev tərəfindən dini sahəyə daim diqqət və qayğı göstərildiyini, ayrı-ayrı dini icmalara münasibətdə heç bir fərqin qoyulmadığını və bu münasibət sayəsində Azərbaycanın zəngin tolerant və multikultural dəyərlərinin qorunduğunu vurğulayıb.

BBMM-in icraçı direktoru Rəvan Həsənov isə qeyd edib ki, bu gün Azərbaycanda 30-dan çox fərqli dinə, mədəniyyətə malik olan xalq yaşayır. Mürəkkəb tarixi mərhələlərdən keçməyimizə və çətin geosiyasi mövqeyimizə baxmayaraq, biz bu gün dünyaya nümunə sayıla biləcək ideal birgəyaşayış nümunəsi yarada bilmişik. R.Həsənov Azərbaycanın sözügedən müxtəlifliyi dövlət siyasəti səviyyəsinə qaldıran nadir ölkələrdən olduğunu vurğulayıb.

“Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti Fuad Məmmədov, Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumunun nümayəndəsi Toral Ağayev, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Bakı şəhəri “Yevangelist Xristian Baptistlərinin kilsəsi” dini icmasının sədri İlya Zençenko, Azərbaycan Bəhailəri Dini Mərkəzinin sədri Azər Cəfərov birgəyaşayışla bağlı meyillərin gücləndirilməsi üçün ölkəmizdə zəruri tədbirlərin həyata keçirilməsindən, Azərbaycandakı mövcud dini-etnik dözümlülük, müxtəlif mədəniyyətlər arasındakı sivil dialoqun dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları tərəfindən təqdir olunmasından danışıblar.

# AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNDA MƏZUN GÜNÜ KEÇİRİLİB



Azərbaycan İlahiyyat İnstitutunda (AİI) Məzun Günü keçirilib.

Ərazi bütövlüyümüzün qorunması və bərpası uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

AİI-nin birinci kurs tələbəsi, 44 günlük Vətən müharibəsi qazisi Turqut Alışov tərəfindən Quran tilavəti təqdim edilib. Ali təhsil müəssisəsinin bir qrup tələbəsinin ifasında ilahi səsləndirilib.

Açılış nitqi ilə çıxış edən AİI rektoru, dosent Aqil Şirinov məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. İnstitutun artıq beş ildir fəaliyyət göstərdiyini söyləyən rektor vurğulayıb ki, ali təhsil müəssisəsi məzunlarını ikinci dəfədir yola salır.

Həmçinin rektor diqqətə çatdırıb ki, institut dövlət qayğısı ilə tam əhatə olunub və müəssisənin əsas məqsədi yüksək intellektə, geniş dünyagörüşünə malik, sağlam düşüncəli, dövlətçiliyə bağlı, Vətənini sevən mütəxəssislər hazırlamaqdır.

A.Şirinov daha sonra bildirib ki, tələbələr ölkəmizin inkişafı, daha da çiçəklənməsi naminə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməli, milli-mənəvi dəyərlərimizi müasir dünyanın reallıqlarına uyğun şəkildə və birləşdirici ünsür olaraq cəmiyyətə təbliğ etməlidirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci ildə imzaladığı Sərəncamla təsis edilən Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasında məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

DQİDK sədri institutun yaradılmasının həm ölkəmiz, həm region, həm də müsəlman dünyası üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb, AİI-nin, artıq Qafqaz bölgəsi üzrə dini təhsil sahəsində xüsusi yeri olduğunu diqqətə çatdırıb. İnstitutun beş ildir fəaliyyət göstərdiyini bildirən M.Qurbanlı qeyd edib ki, ali təhsil müəssisəsi bu müddət ərzində din sahəsində güclü kadr hazırlığı həyata keçirib.

İlahiyyat İnstitutunun professor-müəllim heyətini və tələbələri Məzun Günü münasibətilə təbrik edən Komitə sədri məzunlara bundan sonrakı fəaliyyətlərində uğurlar arzulayıb. Onların cəmiyyətimizə, dövlətimizə layiq kadr olacaqlarına, xalqımızın milli-mənəvi dəyərlərinin daha geniş təbliğ olunmasına öz töhfələrini verəcəklərinə əmin olduğunu bildirib.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, f.f.d. Fuad Nurullayev Şeyxülislam Allahşükür Paşazadənin təbriklərini tədbir iştirakçılarına çatdırıb. F.Nurullayev məzunlara ilahiyyatçı olaraq ölkəsini mükəmməl təmsiletmə məsuliyyətini anlamağı, bu müqəddəs peşənin öhdəsindən layiqincə gəlməyi arzulayıb. O bu məsuliyyətli vəzifədə məzunlara uğurlar diləyib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov çıxışında qeyd edib ki, dünyada bir çox münaqişələr dini zəmində törədilir. Bu kimi mənfi hallardan cəmiyyətimizi, dövlətimizi qorumaq isə əsas vəzifəmizdir. S.Heydərov dini mövqedə ölkəmizə qarşı edilən təhdidlərlə mübarizədə AİI məzunlarının üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb: “Sizin ümdə vəzifəniz dinimizi olduğu kimi cəmiyyətimizə çatdırmaqla yanaşı, milli-mənəvi dəyərlərimizə sahib çıxmaqdır”.

Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) icraçı direktoru Mehman İsmayılov AİI məzunlarının cəmiyyətdə milli-mənəvi dəyərlərin aşılanması istiqamətində xüsusi rol oynayacaqlarını bildirib. O, məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) İnformasiya təminatı və sənədlərlə iş şöbəsinin müdiri Yadigar Məmmədli məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Qeyd edib ki, AİI məzunlarının ölkəmizin hər bir nöqtəsində dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində mühüm işlər görəcəklərinə, multikultural və tolerant mühitin qorunmasında əllərindən gələni əsirgəməyəcəklərinə inam böyükdür.

AİI-nin məzunları adından çıxış edən Günel Aslanova ali təhsil müəssisəsinin kollektivinə təşəkkürünü bildirib. Bu ali təhsil müəssisəsindən məzun olmağın qürurunu yaşayan G.Aslanova bildirib ki, dini elmi əsaslarla təbliğ etmək, cəhalətə, xurafata qarşı mübarizə aparmaq üçün ali savadlı olmaq uşaqlıq arzusu idi və bu istəyinə yetişib. O qeyd edib ki, əsas məqsəd İslamı və digər dinləri daha mükəmməl öyrənmək və insanlara doğru şəkildə çatdırmaqdır.

Daha sonra Azərbaycan İlahiyyat İnstitutu məzunlarının iştirakı ilə hazırlanmış videoçarx nümayiş etdirilib.

Sonda Azərbaycan İlahiyyat İnstitutunun məzunları Tələbə Andı səsləndiriblər.

# MÜBARİZ QURBANLI: "HEYDƏR ƏLİYEV İNKİŞAFIN AZƏRBAYCAN MODELİNİ YARATDI"

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mübariz Qurbanlının yap.org.az saytına müsahibəsi.*



**- Mübariz müəllim, Qurtuluş Gününün müstəqil Azərbaycanın siyasi tarixindəki əhəmiyyəti barədə fikirlərinizi dinləmək maraqlı olardı.**

- Bu gün böyük fəxr və qürurla 30 illik yubileyini qeyd etdiyimiz 15 İyun Milli Qurtuluş Günü ən yeni tariximizə Azərbaycanın xilası günü kimi daxil olub. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı tarixi, siyasi və strateji baxımdan çox mühüm əhəmiyyət kəsb edən hadisədir. 15 iyunun Milli Qurtuluş Günü kimi qeyd olunması təsadüfi deyil. Sovet İttifaqı süquta uğradıqdan sonra Azərbaycan xalqı öz dövlət müstəqilliyinin bərpasını həyata keçirərək bir sıra vacib məsələləri həll etməli idi.

1990-cı illərin əvvəllərində Azərbaycan başqa müstəqillik qazanan xalqlardan fərqli şəraitlə üzləşmişdi. Belə ki, həmin dövrdə Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdı və xalqımız belə bir mürəkkəb şəraitdə müstəqil dövlət quruculuğunu həyata keçirməli idi. Bundan başqa, o vaxt Azərbaycanda proseslərdə siyasi təcrübəsi olmayan insanların siyasi arenada üst mövqeyə çıxması və ölkənin gələcək taleyinin həlli ilə əlaqədar mühüm strateji vəzifələri düzgün, dəqiq müəyyən edə bilməyən adamların idarəçiliyə gəlməsi ölkəmiz üçün müəyyən çətinlik və problemlər yaratmışdı. Biz başqa respublikalara baxsaq, orada siyasi elitanın ölkəsinin qarşısında duran vəzifələri dəqiq müəyyən edə bilməsini görə bilirik. Buna görə də onlar daha az təhlükə ilə üzləşmiş və problemlərini daha tez həll edə bilmişdilər. Bu baxımdan da Azərbaycanın müstəqilliyinin ilk illəri, əslində, ölkəmizdə xaos, qarşıdurma dövrü kimi və millətin qarşısında olan vəzifənin dəqiq şəkildə müəyyən edilməməsi ilə xarakterizə olunur. Məhz bunun nəticəsi idi ki, siyasi hakimiyyət uğrunda mübarizə Azərbaycanda qrupların toqquşmasına gətirib çıxarırdı və bundan da xarici qüvvələr, xüsusilə də Ermənistan əlverişli şəkildə istifadə edərək ölkəmizə qarşı hərbi təcavüzünü genişləndirdi. Çox böyük, müdrik bir siyasi kurs müəyyən edilməli və bununla da Azərbaycanı xarici təhlükələrdən qorumaq, eyni zamanda ümummilli vəzifələri dəqiqləşdirərək milləti həmin vəzifələr ətrafında sıx birləşdirmək lazım idi. Lakin bu, çox ciddi məsələ idi. Bunu yalnız Ümumilli Lider Heydər Əliyev yerinə yetirə bildi.

Heydər Əliyevin 30 il əvvəl - 15 iyun 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtması böyük hadisə olmaqla Azərbaycan üçün ciddi nəticələr verdi. Dahi şəxsiyyətin siyasi hakimiyyətə qayıdışı milli müstəqil dövlətimizin həyatında dönüş nöqtəsi idi. Bu hadisə nəticə etibarilə müstəqilliyimizin əbədi, dönməz olmasında çox mühüm və əhəmiyyətli rol oynadı. Bu qayıdış milli müstəqilliyimizin əbədiliyinin təminatı demək idi.

- Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmiz üçün hansı nəticələrlə yadda qaldı?

- Ümummilli Lider Heydər Əliyev siyasi hakimiyyətə gələrkən Azərbaycanda total böhran vəziyyəti hökm sürürdü. Cəmiyyətin bütün sahələrində Azərbaycan xalqının maraqlarına uyğun olmayan vəziyyət mövcud idi. Hakimiyyətə gəlişindən sonra qısa zaman kəsiyində Heydər Əliyevin yürütdüyü siyasət nəticəsində ölkəmiz müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda regionda öz mövqelərini möhkəmləndirdi, sosial, mənəvi və iqtisadi sahələrdə dövlətin inkişafına və xalqın rifahının yaxşılaşdırılmasına uyğun strategiya qurdu. Hər bir dövlətin tarixində çətin, milli müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdiyi məqamlar olub. Ancaq ən ekstremal siyasi şəraitdə cəmiyyətin həmrəyliyinə nail olmuş şəxsiyyətlər sayəsində dövlətlər öz varlığını qoruyublar. 1991-1993-cü illərdə respublikamızda cərəyan edən mürəkkəb proseslər - siyasi böhranın, anarxiya mühitinin dərinləşməsi, xalqın canı, qanı bahasına əldə etdiyi dövlətçiliyin itirilməsi təhlükəsinin yaranması bu reallığı bir daha təsdiqlədi ki, yalnız böyük dəstəyə malik liderlər xalqlarının müstəqilliyinə etibarlı təminat yarada, onu qoruyub saxlaya bilərlər. Ulu Öndər Heydər Əliyev belə nüfuzlu şəxsiyyət olaraq özünün parlaq zəkası ilə Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırdı. Böhranlı bir dövrdə - 1993-cü ilin iyununda xalqın çağırışına cavab verərək hakimiyyətə qayıdan Ümummilli Lider respublikamızı üzləşdiyi bir çox faciələrdən qurtardı, müdrik və uzaqgörən addımları ilə onu davamlı, sabit inkişaf yoluna çıxardı.

Heydər Əliyev müstəqil Azərbaycanın memarı və böyük dövlət xadimi kimi ən mühüm missiyanı gerçəkləşdirərək yeni tariximizi öz əlləri ilə yazdı. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və ən şanlı səhifələrindəndir. Ulu Öndər özünün şərəfli fəaliyyətində həmişə xalqa arxalandığı kimi, xalq da həmişə ona arxalanırdı, ona etibar edirdi. Dahi rəhbər xalqının ən ağır günlərində səsinə səs verdi və onu baş verə biləcək təhlükələrdən qorudu. Ulu Öndərin hakimiyyətə gəlişi Azərbaycanın taleyini kökündən dəyişdi. Heydər Əliyev dövlət müstəqilliyinə qarşı yönəlmiş daxili və xarici təhdidlərin, Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınması üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması istiqamətində mühüm addımlar atdı. O, bazar iqtisadiyyatı münasibətlərinə keçidin səmərəli mexanizmini formalaşdırmaq üçün dünyanın inkişaf etmiş dövlətlərinin iqtisadi təcrübələrini nəzərə almaqla strateji vəzifələr müəyyən etdi, ölkəmizin təhlükəsizliyini və müdafiəsini təmin etmək qabiliyyətinə malik olan Azərbaycan Ordusunun formalaşdırılması yönündə fəal siyasət apardı. Eyni zamanda, Heydər Əliyevin apardığı uğurlu daxili siyasət nəticəsində milli-mənəvi dəyərlərin, elm, təhsil, mədəniyyət və incəsənətin inkişafında dönüş mərhələsi başladı. Milli ideologiya səviyyəsinə qaldırılan azərbaycançılıq məfkurəsi ölkəmizdəki müxtəlif xalqların, dini konfessiyaların nümayəndələrinin vətəndaş həmrəyliyi şəraitində yaşamasında tarixi-siyasi əhəmiyyət daşıdı. Milli mənlik şüuru inkişaf etdi, xalqımızın öz tarixini dərindən öyrənməsi üçün əlverişli şərait yarandı.

**- Ümumiyyətlə, qurtuluş məfkurəsi Azərbaycana nə verdi?**

- Heydər Əliyevin Ali Sovetin sədri seçildiyi günün - 15 iyun tarixinin Qurtuluş salnaməsi kimi qeyd olunması da tarixi proseslərin obyektiv məntiqi nəticəsidir. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini birləşdirən yeni inkişaf modeli idi. İctimai-siyasi sabitliyi və sosial-iqtisadi inkişafı bu modelin əsas dayağına çevirən Ulu Öndər cəmiyyətdə dayanıqlı milli birliyə nail olmaq üçün hər şeydən öncə, insan hüquq və azadlıqlarının maksimum təminatı məsələsinə xüsusi diqqət yetirdi. O, müdrikliklə bəyan edirdi ki, siyasi sabitlik yaratmadan yeni idarəetmə sisteminə keçidi reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyil. Azərbaycanda milli dövlətçiliyin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirərkən xalqın milli mentalitetinin səciyyəvi cəhətlərini də nəzərə alan dahi siyasətçi özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında ölkənin yeni dövrü üçün iqtisadi tərəqqi xəritəsini hazırladı.

Zəngin dövlətçilik təcrübəsi olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Qarşıya qoyduğu məqsədlərə öz dönməz qətiyyəti ilə nail olan Ulu Öndər xəyalındakı Azərbaycanın portretini hələ 1997-ci ildə çəkmişdi: "Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüququn aliliyinin təmin olunması əsas vəzifəmizdir".

Azərbaycanda ölüm hökmünün ləğv olunması, Amnistiya aktları və əfv fərman və sərəncamları ilə azadlıqdan məhrum edilmiş minlərlə məhbusun cəzasının çəkilməmiş hissəsindən azad olunması insan amilinə diqqətin nümunəsi kimi dəstəklándi.

Milli-mənəvi dəyərlərin qorunması məsələsi də Ulu Öndər Heydər Əliyevin fəaliyyətində aparıcı xətt kimi özünü göstərdi. Böyük şəxsiyyət istər ailədə, istər hansısa dar çevrədə, istərsə də dövlət idarəçiliyində və cəmiyyətdə daim milli-mənəvi, əxlaqi dəyərlərə sadiq qalıb. İdarəçiliyinin bütün mərhələlərində qanunçuluğa, hüquq qaydalarına, ədalətə bağlı olması da, əslində, onun zəngin mənəviyyatından irəli gəlirdi. Böyük strateq həmişə vurğulayırdı ki, Azərbaycan xalqının əsrlər boyu əldə etdiyi milli-mənəvi dəyərlər mədəniyyətdən, əxlaqdan, adət-ənənələrdən və digər insani keyfiyyətlərdən ibarətdir. Onun müasir Azərbaycanda dövlət-din münasibətlərinin formalaşmasında həyata keçirdiyi din siyasətinin əsasında da məhz bu dayanır. Ümummilli Liderin hakimiyyətə yenidən qayıdışından sonra ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində gördüyü böyük işlər dini etiqad azadlığına geniş imkanlar açdı və nəticədə dini icmaların normal fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradıldı. Bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən məqbul bir model kimi qəbul olunur və bəyənilir.

Məhz Heydər Əliyev dühası Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini, o cümlədən Azərbaycanın iqtisadiyyatını dağılmaq, məhv olmaq təhlükəsindən xilas etdi. Onun uzaqgörən siyasəti və gərgin fəaliyyəti sayəsində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində mühüm addımlar atıldı. Həyata keçirilən islahatlar nəticəsində sərbəst bazar münasibətlərinə əsaslanan və sosialyönümlü iqtisadi sistemin formalaşdırılması, ölkədə mövcud olan təbii iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın təsərrüfat dövriyyəsinə cəlb olunması, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası təmin edildi. Ölkə iqtisadiyyatında davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu islahatlar mahiyyət etibarı ilə inkişafın yeni - Azərbaycan modelini yaratdı.

**- Qeyd etdiyiniz kimi, Azərbaycan bu gün əsası 15 iyunla qoyulan strategiya ilə böyük Zəfər yolundan keçməklə inkişaf edir. Bu baxımdan ölkəmizin inkişafı haqqında nə deyə bilərsiniz?**

- Ulu Öndər Heydər Əliyevin "Azərbaycan dünyaya Günəş kimi doğacaq" müdrik kəlamı bugünkü reallıqlarımızda bir daha özünü təsdiqləyir. Azərbaycanın Heydər Əliyevin adı ilə bağlı olan sürətli inkişafının bu gün də yüksək dinamika ilə davam etməsi, o dövrdən başlayan yüksəliş strategiyasının böyük zaman kəsiyini əhatə edən dövlətçilik konsepsiyasını yerinə yetirdiyini qətiyyətlə sübut edir. Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini düşünən şəxsiyyət olub, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət onun bütün fəaliyyətinin əsasını təşkil edib. Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının liderliyinə yüksəldib, ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilib.

davamı səh. 6

# MÜBARİZ QURBANLI: "HEYDƏR ƏLİYEV İNKİŞAFIN AZƏRBAYCAN MODELİNİ YARATDI"

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mübariz Qurbanlının yap.org.az saytına müsahibəsi.*

əvvəli səh. 5

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ona olan bütün ümidləri layiqincə doğruldur və Heydər Əliyev siyasətini yeni məzmun və keyfiyyətdə uğurla davam etdirir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Ermənistan silahlı birləşmələrinin işğalında olan torpaqlarımızın azad edilməsi uğrunda Vətən müharibəsinə qalxan Azərbaycan Ordusu 2020-ci ilin sentyabrın 27-də düşmənə qarşı əks-hücum əməliyyatına başladı. Fədakar, vətənpərvər əsgər və zabitlərimiz 30 ilə yaxın bir müddətdə erməni işğalçıları tərəfindən zəbt olunmuş ərazilərimizi cəmi 44 gündə azad etdi. Əldə etdiyimiz bu tarixi Zəfərə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti, müdrik və uzaqgörən siyasəti, yenilməz, rəşadətli Azərbaycan Ordusunun şəxsi heyətinin şücaəti, qəhrəmanlığı, öz doğma Vətəninə olan sevgisi sayəsində nail olduq.

Bu gün əldə etdiyimiz bütün qələbələrin, uğurların təməlində Heydər Əliyevin möhkəm təməlini qoyduğu siyasi kurs, inkişaf strategiyası dayanır. Bu siyasi kurs Azərbaycanımızı daha böyük uğurlu gələcəyə aparır, onun işıqlı ideyaları daim yaşayacaqdır. Azərbaycan və Heydər Əliyev əsrlər boyu qoşa səslənəcəkdir. Onun nurlu xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

**- Yeri gəlmişkən, 15 iyun – Milli Qurtuluş Günündə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanmasından 2 il ötür. Bəyannamənin strateji əhəmiyyəti barədə fikirlərinizi bilmək istərdik.**

- Bu gün Azərbaycan-Türkiyə əlaqələri bütün sahələrdə uğurla inkişaf edir, ikitərəfli münasibətlər getdikcə güclənir, dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri ölkələrimiz arasında əməkdaşlığı daha da qüvvətləndirir. Qarşılıqlı səfərlər zamanı ən müxtəlif sahələri əhatə edən birgə sazişlərin imzalanması hər iki ölkə arasında perspektiv əməkdaşlığın inkişafına böyük töhfə verir. Dövlətlərimizin başçıları Prezident İlham Əliyev və Rəcəb Tayyip Ərdoğanın bir-birinə göstərdiyi səmimi dəstək və qardaşlıq münasibətləri hər birimiz üçün örnəkdir.

Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq siyasətini bir daha nümayiş etdirən "Şuşa Bəyannaməsi"nin imzalanmasından 2 il ötür. İki ölkə dostluğunun, qardaşlığının və birliyinin yeni təsdiqi sayılan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi inqilabi gerçəklikdir. Bu tarixi hadisə iki qardaş ölkə arasında illərdən süzülüb gələn tarix, mədəniyyət, ortaq etnik köklər, dil, din, milli dəyərlər, milli maraqlar kontekstində mühüm addım oldu.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin ölkəmiz üçün mühüm mənəvi əhəmiyyət kəsb edən Şuşa şəhərində, habelə Azərbaycan xalqının Qurtuluş günü - 15 iyunda və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümündə imzalanması özü bir rəmzi məna daşıyırdı. Şuşa Bəyannaməsi imzalanarkən Azərbaycan Prezidenti İlham Əliyev bu siyasi aktın tarixi əhəmiyyətini vurğulayaraq deyib: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır".

Şuşa bəyannaməsi Türkiyə-Azərbaycan müttəfiqliyinin bütün sahələrini ən yüksək səviyyəyə qaldırdı, beynəlxalq, diplomatik, təhsil, elm, mədəniyyət, iqtisadiyyat və xüsusilə də hərbi sahədə əməkdaşlığı dərinləşdirdi. Bu bəyannamə hər iki müstəqil dövlətin məramını və niyyətini önə çəkdi və Türk dünyasının gələcək hərtərəfli əməkdaşlığı üçün mühüm presedent yaradaraq özündə tərəfdaşlığın bir çox vacib aspektlərini birləşdirdi. Bir daha təstiq olundu ki, Azərbaycan-Türkiyə əlaqələri bütün türk dünyası üçün də mühüm rol oynayır və türkdilli dövlətlər arasında münasibətlərin inkişafına da güclü təsir göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2023-cü il iyunun 13-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşündə dediyi kimi, "Şuşa Bəyannaməsi tarixi anlaşmadır. Bu Anlaşma nəticəsində Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldu". Hər iki ölkənin ümumi maraqlarının möhkəmləndirilməsində bütün imkanların birləşdirilməsinə, eyni zamanda, müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən bu bəyannamə iki qardaş ölkənin – Azərbaycan və Türkiyənin başçılığı altında yeni regional geosiyasi düzənin qurulmasının başlanğıcı, bütün dünyanın hesablaşmalı olduğu tarixi gerçəklikdir.

# DÖVLƏT KOMİTƏSİ JURNALİSTLƏR ARASINDA YAZI MÜSABİQƏSİ ELAN EDİB

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Milli Mətbuat Günü münasibəti ilə jurnalistlər arasında "Media və dini təhlükəsizlik" mövzusunda yazı müsabiqəsi elan edib.

**I. Mükafatlandırma**

I yer - 1nəfər - 1000 manat

II yer - 2 nəfər - 800 manat

III yer - 3 nəfər - 600 manat

Həvəsləndirici mükafat - 9 nəfər - 200 manat

**II. Müsabiqə şərtləri**

Müsabiqəyə təqdim olunmuş yazılarda üstünlük veriləcək:
- Mövzunu dolğun əhatə etmə səviyyəsi;
- Faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti;
- İfadə vasitələrinin zənginliyi;
- Maarifləndiricilik xüsusiyyəti;
- Oxucu üçün informasiyalılıq dərəcəsi;
- Müsabiqəyə 07 iyun 2023-ci il tarixindən 07 iyul 2023-cü il tarixinədək qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında yayımlanan yazılar buraxılacaq;
- Müsabiqə üçün dil məhdudiyyəti nəzərdə tutulmur;
- Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

Yazıda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Milli Mətbuat Günü münasibəti ilə jurnalistlər arasında "Media və dini təhlükəsizlik" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur" qeydi olmalıdır.

**Qeyd:**
Müsabiqə üçün təqdim ediləcək material müəllifin çalışdığı KİV-də yayımlanmaya da bilər.

**III. Yazıların təqdim edilməsi**

Müsabiqə üçün yazıların təqdimatı 2 yolla aparılır – şəxsən və elektron qaydada:

***1. Yazılar şəxsən təqdim edilərkən təqdimat zərfində yer almalıdır:***
- Yazı təqdim edən şəxsin konkret kütləvi informasiya vasitəsində işlədiyini təsdiqləyən sənədin surəti (çalışdığı media qurumu varsa);
- Yazı təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- Yazı təqdim edən şəxsin əlaqə vasitələri – ev və iş telefonu, mobil telefonu;
- Müsabiqə üçün verilmiş yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi;
- Materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi (nüsxələrdə müəllifinin adı göstərilməməlidir);
- Diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmaqla);
- Yazı elektron media resursunda yayımlanıbsa, diskdə yazının linki göstərilməlidir.

***2. Yazılar elektron qaydada təqdim edilərkən aşağıdakılar nəzərə alınmalıdır.***
- Müsabiqəyə yazılar press@scwra.gov.az elektron ünvanına göndərilməlidir.
- Təqdimatda yer almalıdır:
- Müsabiqə yazısı ("Word" faylında, imzasız);
- Müsabiqə yazısının yayımlandığı qəzetin, jurnalın nüsxəsi (PDF, JPG, yaxud "Word" faylında);
- Yazı elektron media resursunda yayımlanıbsa, bunu təsdiqləyən "link";
- Yazı müəllifinin şəxsiyyət vəsiqəsi, iş vəsiqəsi və ya əmək kitabçasından müəllifin KİV-də çalışdığını təsdiqləyən çıxarış (PDF, JPG, yaxud "Word" faylında);
- Yazı müəllifinin əlaqə vasitələri (PDF, JPG, yaxud "Word" faylında) əlavə olunmalıdır.

Müsabiqə üçün yazılar şəxsən, eləcə də elektron poçt vasitəsilə 07 iyun 2023-cü il tarixdən 07 iyul 2023-cü il tarixinədək, həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Əhməd Cavad küçəsi 16 ünvanında qəbul ediləcək.

**Qeyd:** Təqdimat prosesində müsabiqə şərtlərinin hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

**Əlaqə:**
(012) 437 31 15

# PREZİDENT İLHAM ƏLİYEVİN SƏRƏNCAMI İLƏ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN ƏMƏKDAŞLARI TƏLTİF OLUNUBLAR

Prezident İlham Əliyev dövlət qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb. Təltif olunanlar sırasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları da var. Belə ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Cavadov Amil Rafiq oğlu və Gəncə bölgəsi üzrə şöbənin əməkdaşı Verdiyev Şahmar Niyazi oğlu "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif ediliblər.

## CƏLİLABADDA DİN XADİMLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

İyunun 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərov Cəlilabad rayonunda fəaliyyət göstərən din xadimləri ilə görüşüb.

Cəlilabad rayon Heydər Əliyev Mərkəzində baş tutan görüşdə Rayon İcra Hakimiyyəti başçısının (RİH) birinci müavini Qalib Xudaverdiyev, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Vahid Mirzəyev, DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Elvin Hüseynli və Qafqaz Müsəlmanları İdarəsinin Cəlilabad rayonu üzrə səlahiyyətli nümayəndəsi Mahmud Əsgərov iştirak ediblər.

Dini durum barədə ətraflı məlumat verən RİH başçısının birinci müavini Qalib Xudaverdiyev görüşün din xadimlərinin gələcək fəaliyyəti baxımından mühüm olduğunu söyləyib.



Komitə sədrinin müavini Səyavuş Heydərov dini, milli-mənəvi dəyərlərimizin qorunması, İslamın düzgün təbliği, xüsusilə, gənclər arasında maarifləndirmə və xarici qüvvələrin radikal meyilli təsirlərinin qarşısının alınması sahələrində din xadimlərinin üzərinə düşən vəzifələrin önəmi barədə danışıb. Vurğulayıb ki, din pərdəsi altında İslamı təhrif edən, xurafatı, cəhaləti yayan, insanlar arasında ixtilafa səbəb olacaq çağırışlar edən, məzhəb ayrı-seçkiliyi salan qüvvələrə qarşı mübarizə istiqamətində din xadimlərinin üzərinə də böyük məsuliyyət düşür. Din xadimlərinin Vətənə, milli-mənəvi dəyərlərimizə, o cümlədən azərbaycançılıq ideologiyasına bağlı olmaları xüsusi əhəmiyyət kəsb edir.

Çıxış edən din xadimləri milli-mənəvi dəyərlərimizin qorunması və təbliği ilə bağlı dövlətin həyata keçirdiyi genişmiqyaslı işlərin inanclı insanlar tərəfindən məmnunluqla qarşılandığını bildiriblər.

Daha sonra rayonda dini sahə ilə bağlı tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb və müvafiq tövsiyələr verilib.

## İSMAYILLIDA "RƏBB AZƏRBAYCANI SEVİR" ADLI TƏDBİR TƏŞKİL OLUNUB

İyunun 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Rəbb Azərbaycanı sevir" adlı tədbir keçirilib.

İsmayıllı rayonu İvanovka kəndi Mədəniyyət Sarayında baş tutan tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, İsmayıllı Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini Eyyub Musayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) şöbə müdiri Rəşad İlyasov, İsmayıllı rayonu İvanovka kəndi "Molokan-ruhani-xristian" dini icmasının sədri Sergey Kazakov, "Azərbaycan Bibliya Cəmiyyəti"nin sədri Rasim Xəlilov, "Vineyard Azərbaycan" xristian dini icmasının sədri Emil Pənahov, Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri Zamir İsayev, "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumunun mətbuat katibi Toral Ağayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Mixail Klinov, "Bakı Krişna şüuru" dini icmasının sədri Mahir Əhmədov, Qafqaz Müsəlmanları İdarəsinin İsmayıllı rayonu üzrə səlahiyyətli nümayəndəsi Vasif Teymurov, dini icmaların nümayəndələri, eləcə də İvanovka kəndinin sakinləri iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

İsmayıllı RİH başçısının müavini Eyyub Musayev



rayondakı dini durum barədə məlumat verərək burada mövcud olan tolerant və multikultural mühitdən danışıb.

DQİDK sədrinin müavini Səyavuş Heydərov bildirib ki, ölkəmizdə multikulturalizm nəinki siyasi xətt, eyni zamanda, milli keyfiyyət kimi də təqdim olunmaqdadır. Bu gün Azərbaycanın dövlət siyasətinə çevrilən multikulturalizm anlayışı təkcə ayrı-ayrı ölkələrdə deyil, bütövlükdə dünyada mədəni müxtəlifliyin qorunmasına və bu vasitə ilə ümumbəşəri harmoniya yaradılmasına, xalqların, fərqli din və mədəniyyətlərin qarşılıqlı faydalı əməkdaşlığına yönəldilmiş nəzəriyyədir. Dünyada multikulturalizm anlayışının dəyərdən düşdüyü və öz effektivliyini itirdiyi barədə fikirlərin formalaşdığı bir dövrdə Azərbaycan multikulturalizmin alternativsiz anlayış olduğunu əyani şəkildə sübut etməkdədir. Davamlı olaraq bu səpkidə təşkil olunan səfərlər, tədbirlər deyilənləri bir daha təsdiqləyir. S.Heydərov vurğulayıb ki, cəmiyyətimizin belə möhkəm dayaqlar üzərində dayanması da onun gələcək inkişafının sürətli və dinamik olacağından xəbər verir. Fərqli sivilizasiya və mədəniyyət daşıyıcılarının eyni məkanda yanaşı yaşaması və qarşılıqlı zənginləşməsini həyat tərzi kimi qəbul etmək bəşəriyyətin nicat yoludur. Multikulturalizmin Azərbaycan modeli də sübut edir ki, müxtəlif millətlərin və konfessiyaların təmsilçiləri öz identikliklərini qorumaqla və digərlərinə hörmətlə yanaşmaqla inkişaf etdirmək iqtidarındadırlar.

Dini konfessiyaların nümayəndələri çıxışlarında ölkəmizdə müxtəlif dinlərə məxsus ibadətgahların, dini tədris müəssisələrinin sərbəst şəkildə fəaliyyət göstərməsi, dini bayramların yüksək səviyyədə qeyd olunması istiqamətində müxtəlif dini konfessiya nümayəndələrinə dövlət tərəfindən lazımi dəstək verilməsinin Azərbaycanın uğurlu multikulturalizm və tolerantlıq modelinin tərkib hissəsini təşkil etdiyini vurğulayıblar, onlara öz etnik-dini xüsusiyyətlərini və adət-ənənələrini qoruyub yaşatmağa görə yaradılan şəraitdən məmnunluqlarını dilə gətiriblər.

Tədbirin bədii hissəsi isə maraqlı anlarla yadda qalıb. Molokanların Azərbaycan bayrağına və musiqisinə dərin sevgisinin nümayiş etdirildiyi musiqi nömrələri xüsusi maraqla qarşılanıb. Bununla da ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların bir-birinə xoş münasibəti, dəstəyi əyani şəkildə bir daha nümayiş etdirilib.

## MƏHƏRRƏM AYININ BAŞLAMA VAXTI AÇIQLANIB



Bu il Məhərrəm ayı iyulun 19-da daxil olacaq. Bu barədə Qafqaz Müsəlmanları İdarəsindən məlumat verilib. Bildirilib ki, iyulun 19-da Hicri-qəməri təqvimi ilə 1444-cü il başa çatır və 1445-ci il başlayır. Məhərrəm ayının 10-u Aşura günü isə iyulun 28-nə təsadüf edir.

Qeyd edilib ki, avqustun 17-də Məhərrəm ayı başa çatacaq və Səfər ayı başlayır. Sentyabrın 16-da isə Səfər ayı başa çatacaq.

## 54 İLDƏ MƏKKƏYƏ 99 MİLYONDAN ÇOX ZƏVVAR GƏLİB



Səudiyyə Ərəbistanının Statistika İnstitutu 1968-ci ildən müqəddəs torpaqlara Həcc ziyarətinə gələnlərlə bağlı statistik məlumatların toplanmasına başlayıb.

Bu barədə ölkənin rəsmi xəbər agentliyi SPA məlumat yayıb.

Qeyd olunub ki, 54 il ərzində 99 milyondan çox zəvvar Məkkəyə səfər edib. Bu il də 2,4 milyon insan Həcc ziyarətinə gedir.

Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyindən verilən məlumata görə, cari ildə əcnəbi zəvvarlar üçün Həcc ziyarəti xərcləri 39 faiz azaldılıb.

# “MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR”




İyunun 12-14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Zaqatala rayonunda “Müasir çağırışlar və qarşıda duran əsas hədəflər” mövzusunda üçgünlük regional konfrans keçirilib.

Konfransın ilk günü Ulu Öndər Heydər Əliyevin Zaqatala şəhərində ucaldılan abidəsi ziyarət olunub.

DQİDK və Zaqatala Rayon İcra Hakimiyyətinin (RİH) rəhbər şəxsləri, dini konfessiya, eləcə də ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi tədbir ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Açılış nitqi ilə çıxış edən Zaqatala RİH-in başçısı Mübariz Əhmədzadə bildirib ki, Azərbaycan müxtəlif millətlərə və dinlərə məxsus insanların birgə mehriban yaşadığı, Şərqlə Qərb, Qərblə İslam dünyası arasında bir körpü olaraq mədəniyyətlər və sivilizasiyalararası dialoqa böyük önəm verən ölkədir. Rayondakı mövcud dini durum barədə məlumat verən M.Əhmədzadə vurğulayıb ki, milli-mənəvi dəyərlərimizə yad ideologiyaların zərərli təbliğatının qarşısının alınması, ölkədəki tolerantlıq mühitinin qorunub saxlanması istiqamətində Komitənin həyata keçirdiyi tədbirlər əhali tərəfindən razılıqla qarşılanır.




DQİDK sədrinin müavini Səyavuş Heydərov çıxışında din sahəsində həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri barədə məlumat verib. O, ölkəmizdə dini sabitliyin qorunub saxlanılması və dini maarifləndirmə sahəsində görülməsi zəruri olan məsələlərə də toxunub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda formalaşan tolerantlıq və birgəyaşayış mühitinin ölkəmizi dünyada multikulturalizm mərkəzinə çevirdiyini qeyd edən sədr müavini dinlərarası harmoniya, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri haqqında da məlumat verib.

S.Heydərov vurğulayıb ki, Azərbaycanda radikal cərəyan mənsublarına qarşı mübarizədə bir sıra vasitələrdən istifadə edilir, bu sahədə görülən praktiki işlər mühüm nəticələr verir. Dini maarifləndirmə işinin düzgün və səmərəli təşkili, cəmiyyətimizin müxtəlif din və millətlərin mənsublarının birgəyaşayış tərzinə olan münasibəti bu nəticələrin qazanılmasında həlledici rol oynayır. Dövlətimiz zəruri hallarda hüquqi aspektdən tələb olunan inzibati tədbirlər də həyata keçirməklə, bu nəticələrin effektivliyini daha da artırır.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Kamilə Əliyeva Azərbaycanın mədəniyyətlərin inteqrasiyası və tolerantlıq təcrübəsinə malik ölkə olduğunu, bu səbəbdən də mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan ölkəmizin dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük mərkəzlərindən birinə çevrildiyini vurğulayıb. Onun sözlərinə görə, Azərbaycan dövlətinin bu sahədəki fəaliyyətində tolerantlıq və qarşılıqlı hörməti təşviq edən siyasət dayanır.

YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov Ulu Öndər Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində qoyduğu siyasətin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizdə mövcud tolerant mühitin qorunması və təbliği, dini radikalizm meyillərinin qarşısının alınması istiqamətində görülən işlərdən söhbət açıb, belə tədbirlərin keçirilməsinin maarifləndirilmə baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.



Dini radikalizmi cəmiyyətdə yayanların əsasən insanların dini savadsızlığından və dünyagörüşlərinin zəif olmasından istifadə etdiyini bildirən Qafqaz Müsəlmanları İdarəsinin Zaqatala rayon qazısı Malik Bilalov dini maarifləndirmənin və insanlarda sağlam dini təsəvvürlərin formalaşdırılmasının radikalizmlə mübarizədə böyük əhəmiyyətə malik olduğunu söyləyib.

Günün ikinci yarısında din xadimləri və dini icma sədrlərinin iştirakı ilə görüş keçirilib.

Konfransın ikinci günündə DQİDK və Zaqatala RİH-in rəsmi şəxsləri, rayonda fəaliyyət göstərən qurumların rəhbərləri, ictimaiyyət nümayəndələri, gənclər iştirak ediblər.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov ölkədəki dini durum, dini icmaların fəaliyyəti, dövlətin dinə qayğısı və tolerantlıq siyasəti barədə danışaraq qeyd edib ki, ölkəmizdə dövlət-din münasibətləri qanunvericiliklə tənzimlənir. Eyni zamanda tərəfimizdən dinin əsas məqsədlərindən olan cəmiyyət, dövlət və ailə üçün faydalı, nümunəvi vətəndaş formalaşdırılması istiqamətində maarifləndirici təbliğat aparılır. Sədr müavini bildirib ki, yad dini ideologiyaların təsiri altına düşənlərin bilgilərinin zəif olması faktını diqqətə aldıqda cəmiyyətdə təhsil və dini biliklərin paralel şəkildə insanlara çatdırılması, gənclərə dinlər haqqında ümumi məlumatların verilməsi, müqəddəs kitabların mahiyyətinin izah edilməsi önəmli rola malikdir.

Azərbaycanın dünyaya zəngin multikulturalizm modelini təqdim etməsindən də söz açan G.İsmayılov tarixən müxtəlif etno-mədəni qrupların və dini konfessiyaların birgə yaşadığı ölkəmizdə multikulturalizm siyasətinin banisinin məhz Ulu Öndər Heydər Əliyev olduğunu xatırladıb. Sədr müavini Ümummilli Liderin bu siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bütün dinlərin tarixi, mədəni abidələri və zəngin mənəvi irsinin dövlət tərəfindən qorunduğunu, dini icmaların sərbəst, heç bir maneə olmadan fəaliyyət göstərdiklərini vurğulayıb.

Zaqatala RİH başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Süleymanova əhalinin dini cəhətdən məlumatlandırılması, dövlət-din münasibətlərinin inkişaf etdirilməsi, zərərli dini təsirlərə qarşı mübarizə və s. baxımından bölgələrdə keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətini qeyd edib.

Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Zaqatala rayon sektorunun müdiri Kəmalə Əhmədova, Rayon Gənclər və İdman İdarəsinin rəisi Araz Əliyev mövzu ilə bağlı fikirlərini bölüşərək milli-ideoloji cəhətdən dövlətimiz və cəmiyyətimiz üçün mühüm strateji əhəmiyyət kəsb edən dini-ideoloji sahədə mövcud problemlər və əldə edilən uğurlardan danışıblar.

Konfransın işi müzakirələrlə davam etdirilib.

Tədbirin üçüncü günündə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Zaqatala RİH başçısının birinci müavini Tofiq Əhmədov, Ağsaqqallar Şurası sədrinin müavini Tahir Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin Zaqatala rayonu üzrə səlahiyyətli nümayəndəsi Rasim Musayev və başqaları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK sədrinin birinci müavini S.Salahlı ölkəmizdəki tolerant və multikultural ənənələrə söykənən nümunəvi dövlət-din münasibətlərindən danışaraq bildirirb ki, bu sahəni tənzimləyən qanunvericilik aktları olduqca dolğundur və demokratik prinsiplərə əsaslanır. Komitə rəsmisi vurğulayıb ki, ölkəmizdə mövcud olan multikultural mühit radikalizm və dini dözümsüzlüyün cərəyan etdiyi bütün dövlətlər üçün əvəzsiz nümunədir. Onun sözlərinə görə, respublikamızda yerləşən dini abidələrin qorunması, bərpası və yenidən tikilərək inanclı insanların istifadəsinə verilməsi, dövlət-din münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsi, dini təhsilin keyfiyyət və kəmiyyətcə artırılması və s. işlər bu sahəyə olan diqqətin təcəssümüdür.

Zaqatala RİH başçısının birinci müavini Tofiq Əhmədov çıxış edərək bildirib ki, ölkə vətəndaşları dini mənsubiyyətindən asılı olmayaraq dövlətin qayğısı və himayəsi altındadır. Prezident cənab İlham Əliyev dini dəyərlərimizə böyük önəm verir. Qeyd olunub ki, dini icmalarla qarşılıqlı münasibətlərin formalaşması nəticəsində rayonda dini durum sabitdir, etiqad azadlığı tam təmin edilir.

Ağsaqqallar Şurası sədrinin müavini Tahir Məmmədov və Qafqaz Müsəlmanları İdarəsinin Zaqatala rayonu üzrə səlahiyyətli nümayəndəsi Rasim Musayev öz növbələrində mövzu ilə bağlı fikirlərini bölüşüb, ölkə vətəndaşlarının dini mənsubiyyətindən asılı olmayaraq dövlətin qayğı və himayəsi ilə əhatə olunduqlarından, keçirilən maarifləndirmə tədbirlərinin milli-mənəvi dəyərlərimizi, ölkədə zəngin tolerantlıq və multikulturalizm mühitinin qorunub saxlanması istiqamətində vacibliyindən bəhs ediblər.

Konfrans işini mövzu ətrafında müzakirələrlə yekunlaşdırıb.

davamı səh. 9

# “MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR”

əvvəli səh. 8



“Müasir çağırışlar və qarşıda duran əsas hədəflər” mövzusundakı növbəti regional konfrans iyunun 20-22-də Masallı rayonunda baş tutub.

Konfransın ilk günü Ulu Öndər Heydər Əliyevin rayonda yerləşən abidəsi ziyarət olunub, abidə önünə gül dəstələri qoyulub.

Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayan konfransda din xadimləri və ictimaiyyətin digər nümayəndələri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Masallı RİH-in başçısı Araz Əhmədov dini müstəvidə sabitlik və əmin-amanlığın din siyasəti sahəsində qarşıda duran əsas hədəflərdən olduğunu vurğulayıb, cəmiyyətimizin, xüsusilə gənclərin radikal təsirlərdən qorunmasında aidiyyəti qurumların, eləcə də din xadimlərinin üzərinə böyük məsuliyyətin düşdüyünü bildirib.

DQİDK sədrinin müavini Sahib Nağıyev bildirib ki, zaman-zaman Azərbaycanın yüksəlişini gözü götürməyən kənar qüvvələr qlobal və regional hegemon dövlətlərin maraqlarına xidmət edən radikal və ekstremist ideologiyaları, qatı məzhəbçiliyi, yad mədəniyyətləri din adı altında ölkəmizdə yaymağa cəhd ediblər. Təəssüflə qeyd etməliyik ki, onlar müəyyən dırnaqarası uğurlara nail olmaqla yanaşı, daha da irəli gedərək, İslam dinini siyasi alətə çevirməkdən də çəkinməyiblər. Xarici dairələrin ölkəmizdə apardıqları dini təbliğatda əsas məqsədin Azərbaycanı zəifləmək, parçalamaq, ən azından təsir altına salmaq olduğunu dilə gətirən sədr müavini bütün bu kimi hallarla mübarizədə Azərbaycan xalqının iradəsi və bu iradənin təcəssümü olan Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərinə diqqəti çəkib. Vurğulayıb ki, Ümummilli Liderin 1993-cü ilin iyununda xalqın tələbi ilə hakimiyyətə qayıdışı nəticəsində dövlət-din münasibətlərində yeni mərhələ başlayıb, bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsi, inzibati idarəetmə mexanizmlərinin formalaşdırılması, milli-mənəvi dəyərlərin qorunaraq sonrakı nəslə ötürülməsi istiqamətində mühüm addımlar atılıb.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Anar İsgəndərov deyib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımız yenidən milli-mənəvi dəyərlərinin sahibi kimi çıxış etməyə başlayıb. Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlət-din münasibətlərinin tənzimlənməsinin və inkişafının əsası qoyulub. Millət vəkili dinə və dindarlara göstərilən qayğıdan da bəhs edərək bildirib ki, dini ibadət yerlərinin tikintisi, təmiri, tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması dövlətimizin bu sahədəki siyasətinin tərkib hissələrindəndir.

Millət vəkili Musa Qasımlı diqqəti Azərbaycanın müxtəlif dinlərin və mədəniyyətlərin qovuşduğu bir ölkəyə çevrilməsinə çəkib. Ölkəmizdə müxtəlif xalqların, dinlərin, mədəniyyətlərin nümayəndələrinin yaşadığını qeyd edən deputat Azərbaycanın bu istiqamətdə bütün dünyaya nümunə olduğunu bildirib. M.Qasımlı dinin siyasiləşdirilməsi cəhdlərinin törədə biləcəyi mümkün təhlükələrdən və bu hallara qarşı mübarizə tədbirlərindən də bəhs edib.

Baş Prokurorluğun nümayəndəsi Asim Yusifov və Daxili İşlər Nazirliyinin əməkdaşı Oqtay Tağıyev çıxışlarında dinin siyasiləşdirilməsi cəhdlərinə, dini radikalizm və ekstremizmə qarşı effektiv mübarizənin aparılması, dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi məqsədilə müxtəlif formatlarda birgə tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıblar.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Məftun Hüseynov mövzu ilə bağlı fikirlərini bölüşüb.

Sonda DQİDK-nın sifarişi ilə ərsəyə gətirilmiş “Müasir çağırışlar və qarşıda duran əsas hədəflər” mövzusunda video-çarx nümayiş etdirilib.

Regional konfransın birinci günü müzakirələrlə yekunlaşıb.

Konfransın ikinci günündə DQİDK və Masallı RİH-in rəsmi şəxsləri, rayonda fəaliyyət göstərən qurumların rəhbərləri, ictimaiyyət nümayəndələri, gənclər iştirak ediblər.



Masallı RİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Abbas Abbaszadə tədbiri giriş sözü ilə açaraq, bölgədəki dini durum barədə məlumat verib. Vurğulayıb ki, bu gün respublikamızda insan hüquq və azadlıqlarının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə böyük önəm verilir. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi prinsipləri təsbit olunub, dini etiqad azadlığı ilə bağlı hüquqi-normativ aktların icrasının təmin olunmasına nəzarət edilməsi, tarixi-dini abidələrimizin bərpası və qorunması istiqamətlərində mühüm tədbirlər həyata keçirilib.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə bildirib ki, hazırda ölkədə dövlət-din münasibətləri ən yüksək səviyyədə tənzimlənməkdədir. Ölkəmizdəki dini dözümlülük, bütövlükdə tolerantlıq mühiti və mədəniyyəti Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq daha da möhkəmlənib. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi strateji kurs nəticəsində Azərbaycan dünyada tolerant ölkə, müxtəlif dinlərin birgə fəaliyyət göstərdiyi məkan kimi tanınır.

Şöbə müdiri Dövlət Komitəsinin ölkədə dini radikalizmin, ekstremizmin qarşısının alınması, milli-mənəvi dəyərlərimizin təbliği, ölkədə və ölkə hüdudlarından kənarda multikulturalizmin, tolerantlığın Azərbaycan modelinin təbliği istiqamətlərində həyata keçirdiyi maarifləndirici tədbirlər haqqında məlumat verib. Eyni zamanda, müasir dövrün çağırışları və qarşıda duran vəzifələr barədə tədbir iştirakçıları ilə fikirlərini bölüşüb.





Masallı Rayon Ağsaqqallar Şurasının sədri Ələşrəf Niftiyev və Lənkəran-Astara Regional Təhsil İdarəsinin Masallı rayonu üzrə təhsil sektorunun müdiri Qoşqar Hətəmov çıxışlarında mövzu ilə bağlı fikirlərini bölüşərək milli-ideoloji cəhətdən dövlətimiz və cəmiyyətimiz üçün mühüm strateji əhəmiyyət kəsb edən dini-ideoloji sahədə mövcud problemlər və əldə edilən uğurlardan danışıblar.

Konfrans işini müzakirələrlə davam etdirib.

Tədbirin üçüncü günündə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Masallı RİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Abbas Abbaszadə, Masallı rayon Gənclər və İdman İdarəsinin rəisi Sabiq Cahangirov, “Masallı ziyalıları” İctimai Birliyinin sədri Qardaş Fətullayev və başqaları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Elvin Hüseynli ölkəmizdə dini durum, multikultural dəyərlərin qorunması, eyni zamanda tolerantlıq mühitinin, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi istiqamətində görülən işlərdən, eləcə də Dövlət Komitəsinin bölgədəki fəaliyyətindən danışıb.

DQİDK sədrinin birinci müavini S.Salahlı çıxışında Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması istiqamətində aparılan dövlət siyasətindən bəhs edərək, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılmasının Ümummilli Liderin adı ilə bağlı olduğunu bildirib. Vurğulayıb ki, Ulu Öndərin dövlət-din münasibətləri sahəsindəki nümunəvi siyasəti onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla reallaşdırılır. Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir.

Xalqımıza məxsus milli-mənəvi dəyərlərin təbliğinin vacibliyinə də diqqət çəkən Səyyad Salahlı vətəndaşları, xüsusilə, gəncləri əsrlərlə formalaşan və bu gün dövlət siyasətinin mühüm istiqamətinə çevrilən tolerant və multikultural ənənələrin mühafizə olunması istiqamətində səy göstərməyə səsləyib.

Masallı RİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Abbas Abbaszadə çıxış edərək, son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Masallıda da dini maarifləndirmə istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin siyasəti nəticəsində xalqımızın adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanılıb, etiqad azadlığı bərqərar olub. Ölkəmizin dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsi dünyada uğurlu model kimi yüksək qiymətləndirilir.

Masallı rayon Gənclər və İdman İdarəsinin rəisi Sabiq Cahangirov, “Masallı ziyalıları” İctimai Birliyinin sədri Qardaş Fətullayev də çıxışlarında mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Konfrans işini mövzu ətrafında müzakirələrlə yekunlaşdırıb.

# GÜNDÜZ İSMAYILOV: BİR NÖMRƏLİ MƏQSƏDİMİZ, VƏZİFƏMİZ VİCDAN AZADLIĞINI TƏMİN ETMƏKDİR

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun "Report" İnformasiya Agentliyinə müsahibəsi.*



**- Gündüz müəllim, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu gün hansı əsas vəzifələrin icrasını qarşısına məqsəd kimi qoyub?**

- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) 2001-ci il iyun ayının 21-də Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə yaradılıb və biz bu günlərdə 22 illiyimizi böyük konfransla qeyd etdik. Komitənin yaranması ilə bağlı Fərmanda konkret olaraq DQİDK-nın vəzifələri göstərilib. Birinci vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə müvafiq olaraq dini etiqad azadlığının həyata keçirilməsi üçün münasib şəraitin yaradılmasıdır. İkinci vəzifəsi dini qurumların dövlət qeydiyyatına alınmasıdır. 2001-ci ilə qədər dini qurumlar Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçirdilər. 2001-ci ildən sonra isə bu səlahiyyət Dövlət Komitəsinə verildi. Üçüncü istiqamət isə dini qurumlarla digər dövlət qurumları arasında vasitəçi və əlaqələndirici olmaqdır.

Sadaladıqlarım Dövlət Komitəsi yarananda qarşısına qoyulan vəzifələr idi. Amma zaman keçdikcə, təbii ki, iş yükü artdı və vəzifələrə yeniləri əlavə olundu. Məsələn, 2008-ci ildə Dövlət Komitəsinin Əsasnaməsində dəyişiklik edildi. Komitənin qarşısına belə bir vəzifə qoyuldu ki, ölkədə dini maarifləndirmə işi də aparsın. Bu gün maarifçilik işi televiziya verilişlərimiz, eyni zamanda qəzetimiz, jurnalımız, saytımız, sosial şəbəkələrdə qrup və səhifələrimiz, müxtəlif maarifləndirici tədbirlər, seminarlar, treninqlər, təlimlər, müşavirələr, konfranslar və s. vasitəsilə həyata keçirilir. Hazırda Dövlət Komitəsində ayrıca Dini maarifləndirmə işinin təşkili şöbəsi fəaliyyət göstərir.

Zaman keçdikcə din xadimlərinə maddi dəstəyin verilməsi də vəzifələrimiz sırasında yer aldı. 2017-ci ilə qədər din xadimlərinə dövlət tərəfindən rəsmi şəkildə aylıq maddi dəstək verilmirdi. Həmin ildə Prezident İlham Əliyevin Fərmanı ilə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradıldı. Fond mənəvi dəyərləri təbliğ etməklə yanaşı, hər ay rəsmi təyinatı olan din xadimlərinə aylıq maddi dəstək verir. Bu, maaş deyil, maddi dəstəkdir. Fond mənəvi dəyərlərin təbliği istiqamətində də iş görür – kitablar nəşr edir, sənədli filmlər çəkir, konfranslar, seminarlar keçirir. Məsələn, Fond tərəfindən indiyə qədər dəfələrlə həm Azərbaycan, həm də Gürcüstanda yaşayan azərbaycanlı müsəlmanlar üçün Qurani-Kərim nəşr edilib. Eyni zamanda, Fond tərəfindən şəhid ailələrinə, qazilərə, dinimizin, milli-mənəvi dəyərlərimizin təbliğinə yönəlik çoxsaylı layihələr həyata keçirilir. Bunlarla yanaşı, hər ay Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, 1120 nəfərə Fond tərəfindən maddi dəstək göstərilir. Bunlardan təxminən 468 nəfəri imam, 312 nəfəri imam müavini, 320 nəfəri dini ayinlərin icraçısı-müəzzin, 20 nəfəri isə qadın dini ayinlərin icraçısıdır.

Sonuncu dəfə 2022-ci ildə Dövlət Komitəsinə yeni bir vəzifə həvalə olundu. Ötən il "Dini etiqad azadlığı haqqında" Qanuna dəyişiklik edildi. Həmin dəyişikliyə əsasən, İslam dininə aid ibadət yerlərinə - məscid və ziyarətgahlara din xadimlərinin təyin edilməsi Dövlət Komitəsinin səlahiyyətlərinə aid edildi. Bir sözlə, 2001-ci ildən 2023-cü ilə qədər keçdiyimiz 22 illik yola nəzər saldıqda, məlum olur ki, Komitənin iş yükü, vəzifələri, funksiyaları artan xətlə davam edib. Bu həm də onu deməyə əsas verir ki, din sahəsində Azərbaycan hökumətinin fəaliyyətini, siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi belə bir qurumun yaradılması zəruri idi və Komitə bugünədək üzərinə düşən işin öhdəsindən layiqincə gəlməyi bacarıb.

Onu da əlavə edim ki, Dövlət Komitəsi sadalanan bu işləri 179 əməkdaşla həyata keçirir. 179 ştat vahidinə Komitənin rəhbərliyində təmsil olunan siyasi vəzifə tutan şəxslərlə yanaşı, texniki heyət də daxildir. Mərkəzi Aparatımızda 88, bölgə şöbələrimizdə 91 ştat vahidi var. Bəzən elə görüntü yaratmaq istəyirlər ki, guya Komitədə yüzlərlə, minə yaxın işçi çalışır. Bunu əsas gətirib Komitəni nədəsə günahlandırmaq istəyənlər də tapılır. Hətta bizə aid oldu-olmadı "Dini Komitə hara baxır?", - deyə sual verənlər də ortaya çıxır. Halbuki, qeyd etdiyim kimi, Komitənin ştat vahidi məhduddur.

**- Din xadimlərinin təyinatı zamanı hansı məqamlar mütləq nəzərə alınır?**

- Dediyim kimi, ötən il "Dini etiqad azadlığı haqqında" Qanuna dəyişiklik edildi. Dəyişikliyin də mahiyyəti bundan ibarət idi ki, məscid və ziyarətgahlara din xadimlərinin təyinatı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilsin. Biz bu proses şəffaf olsun və daha layiqli namizədlər təyinat alsın deyə "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"nı hazırladıq və Ədliyyə Nazirliyində normativ hüquqi akt kimi qeydiyyatdan keçirdik. Qanunvericiliyə görə, müsəlman din xadimlərini Dövlət Komitəsinin sədri təyin edir. Amma Komitə sədri istənilən şəxsi din xadimi təyin edə bilməz.

Birincisi, qanun tələb edir ki, din xadimi təyin olunacaq şəxsin ya ali dini, ya da orta ixtisas dini təhsili olsun. Yəni namizəd ya universitet, institut, akademiya, ya da mədrəsə bitirməlidir. Bu, qanunun tələbidir. İkincisi, Dövlət Komitəsinin sədri ali təhsili olan şəxsi müsahibədən keçməsə, imam, yaxud imam müavini təyin edə bilməz. İlahiyyatçılardan ibarət 7 nəfərlik Müsahibə komissiyası var. Komissiya üzvləri İlahiyyat İnstitutunun müəllimləri, eyni zamanda Dövlət Komitəsində çalışan ilahiyyatçı əməkdaşlardır. Yəni 7 nəfərin içərisində bir nəfər də olsun, qeyri-ilahiyyatçı yoxdur. Qaydaya əsasən, 7 nəfərin hər birinin qiymətləndirmə balı 5-dir və namizəd maksimum bal toplayacağı halda bu, 35 edir, keçid balı isə 26-dır. Bu, o deməkdir ki, namizədin təsadüfən, yaxud qanundan kənar yolla müsahibədən keçməsi mümkün deyil. Çünki 7 nəfərin hər biri onu qiymətləndirməlidir. İkincisi, çox vaxt sual verilir ki, müsahibə sualları hansı istiqamətdədir? Biz hansı mövzulardan sual veririksə, o mövzular təsdiqlənərək Komitənin rəsmi saytında yerləşdirilib. Bu, hər bir namizəd üçün əlçatandır. Bəs hansı mövzulardır? İlk növbədə, Qurani-Kərimdir ki, bu istiqamətdə namizədi sual-cavab edən Azərbaycan İlahiyyat İnstitutunun prorektoru və Quran müəllimi Mirniyaz Mürsəlovdur. Artıq uzun müddətdir ki, o, Qurani-Kərimi tədris edir, ilahiyyat üzrə fəlsəfə doktorudur, Azərbaycanda ən yaxşı Quran mütəxəssisi sayılır. Heç kim onun işinə müdaxilə edə bilməz. Mən komissiyanın sədri olmağıma baxmayaraq, Mirniyaz müəllimin namizədlə dialoquna hər hansı bir formada müdaxilə etmirəm və belə bir imkanım, səlahiyyətim yoxdur. Qurani-Kərim, onun oxunuşu, təcvidi - əsas bunlar soruşulur. Digər önəmli bir məqam şəriətlə bağlı suallardır. Namaz, oruc, zəkat, Həcc, dəfn mərasimi, nikah, təfsir və s.

Digər mövzulardan biri Azərbaycan tarixidir. Amma biz namizəddən tarixçi kimi cavab gözləmirik. Elə məqamlar var ki, namizəd, yəni gələcəyin din xadimi bunları bilməlidir. Məsələn, o, Azərbaycan ərazisində tarixən mövcud olmuş dövlətləri, hazırda mənsubları olan ənənəvi dinləri, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını, müstəqil Azərbaycanın tarixini, 44 günlük Vətən müharibəsini, heç olmasa, önəmli faktları, tarixi həqiqətləri bilməlidir. Eyni zamanda, namizədin dil bilikləri yoxlanılır. Ərəb, fars, yaxud hər hansı bir xarici dili bilirmi? Təbii ki, dünyagörüşü ilə yanaşı, din sahəsində qanunvericik bazası barədə məlumatlı olmalıdır. Məsələn, bir imam bilməlidir ki, Azərbaycan Respublikasının Konstitusiyasında dövlət-din münasibətləri ilə bağlı maddələr hansılardır? Dövlət Komitəsinin Əsasnaməsini, yaxud Qafqaz Müsəlmanları İdarəsinin Nizamnaməsini bilməlidir. Çünki din xadimləri şəriət məsələlərində QMİ-yə tabedirlər. İmam ən azı özünün vəzifələrini və funksiyalarını öyrənməlidir.

Bütün müsahibə prosesi zamanı videoçəkiliş aparılır. İmtahanda iştirak edən şəxs sonradan videoçəkilişlə tanış ola, imtahanın nəticələrindən narazı qalarsa, apellyasiyaya, hətta məhkəməyə də müraciət edə bilər. Bu dediyim mövzularda uğur qazanacağı təqdirdə namizəd müsahibədən keçir və müsahibədən keçdikdən sonra Dövlət Komitəsi sədrinin onu din xadimi təyin etmək hüququ yaranır.

**- Qadın dini iyinlərin icraçıları da eyni prosedurdan keçirlər?**

- Əlbəttə. Bir məsələni də qeyd etmək istəyirəm. Bəzən məqsədyönlü şəkildə elə iddia edirlər ki, guya DQİDK məscidlərə qadın din xadimləri təyin edir. Hətta bir az da irəli gedib bunu elə təqdim etmək istəyirlər ki, guya Dövlət Komitəsi müsəlmanlara deyəcək ki, qadın imamların arxasında namaz qılmalısınız. Bunu bilməyərəkdən deyənlər də var. Diqqət edin, bu vəzifənin adı imam, imam müavini deyil, qadın dini ayinlərin icraçısıdır. Din xadimlərinin təyinatı, rotasiyası, fəaliyyətinə xitam verilməsi qaydaları ilə bağlı təlimatda qadın dini ayinlərin icraçısı vəzifəsinin funksiyası göstərilib. Bunlara imamın tapşırığına əsasən məsciddə qadınlara yönəlik dini fəaliyyəti həyata keçirmək, eyni zamanda qadınların iştirakı ilə keçirilən yas mərasimlərini idarə etmək daxildir. Hamısına şamil edilməsə də, təəssüf ki, xurafatın yayıldığı nöqtələrdən biri də qadınların iştirakı ilə keçirilən yas mərasimləridir. Orada iştirak edən bəzi "qadın mollalar" xurafatın təbliğatçısına çevrilirlər. Bunun qarşısını almaq yollarından biri də qadın dini ayinlərin icraçısı vəzifəsinin təsis edilməsi, bu vəzifə üçün imtahanların keçirilməsidir. Birinci imtahan – müsahibədə 71 qadın namizəddən 18 nəfəri uğur qazandı, onlardan 17-si artıq təyinat alıb. Ümumiyyətlə, indiyə qədər din xadimi vəzifələrini tutmaq üçün 3 dəfə vakansiya elan etmişik. Birinci vakansiyada 270 nəfər sənəd vermişdi, onlardan 133 nəfəri uğur qazanıb, 112-nə təyinat vermişik. İkinci vakansiyada 254 namizəd iştirak edib, 66 nəfər uğur qazanıb, 55 nəfər təyinat alıb. Hazırda 3-cü vakansiyaya sənəd qəbulu bitib, 293 nəfər sənəd verib, onlardan 113-ü qadın, 180-i kişidir. Bu, onu deməyə əsas verir ki, iki müsahibənin obyektiv, şəffaf keçirilməsi din sahəsində təhsil almış insanlarda artıq inam yaradır ki, müsahibə obyektivdir və mən uğur qazana bilərəm. Getdikcə sənəd verənlərin, din xadimi, o cümlədən qadın dini ayinlərin icraçısı olmaq istəyənlərin sayı artmaqdadır. Şəffaflığın nəticəsi bax budur.

**- Hazırda ölkəmizdə dini təhsilin səviyyəsi qaneedicidirmi?**

- Bu gün dini təhsil Dövlət Komitəsi üçün prioritet istiqamətlərdən biridir. Təsadüfi deyil ki, son bir ildə Dövlət Komitəsində ayrıca bir şöbə – Dini təhsil şöbəsi yaradılıb. Cənab Prezidentin Sərəncamı ilə 2018-ci ildə Azərbaycan İlahiyyat İnstututu yaradıldı. İlahiyyat İnstitutunun ötən il məzunları oldu. O məzunların bir hissəsi müsahibədən keçdikdən sonra təyinat aldı. Bu il də məzunlarımız var. Hazırda institutda 305 tələbə təhsil alır. Ötənilki və builki məzunların sayı 87 nəfərdir. Təhsil alanlardan 14 nəfəri xarici vətəndaş olan azərbaycanlılardır, əsasən İğdır, Qars və Gürcüstandan olan soydaşlarımızdır. Biz nəzərdə tutmuşuq ki, onların sayını bir az da artıraq. Hazırda dini təhsillə bağlı qarşımıza qoyduğumuz məqsəd nədir? Birinci: Qanun xaricdə dini təhsil almağı qadağan etmir, amma açığı, biz bunu məqsədəuyğun saymırıq. Bəzən bunu da doğru qəbul etməyənlər, müxtəlif izahat verənlər var. Məsələn, adam deyir ki, niyə mən xaricdə riyaziyyat, coğrafiya, idarəetmə üzrə təhsil ala bilərəm, din üzrə təhsil ala bilmərəm? Məsələ burasındadır ki, dinlə riyaziyyat eyni deyil, din ideoloji məsələdir, ideoloji işdir. Mən xaricdə dini təhsil alan azərbaycanlıların hamısını xarici ölkələrin təsir dairəsinə düşdüyünü iddia etmirəm. Onların da içərisində Vətənini, dövlətini sevən insanlar var. Amma biz xaricdə təhsili niyə doğru saymırıq? Çünki din yalnız şəriətdən iba-

davamı səh. 11

# GÜNDÜZ İSMAYILOV: BİR NÖMRƏLİ MƏQSƏDİMİZ, VƏZİFƏMİZ VİCDAN AZADLIĞINI TƏMİN ETMƏKDİR

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun "Report" İnformasiya Agentliyinə müsahibəsi.*

əvvəli səh. 10

rət deyil. Bir var şəriət, bir də var mədəniyyət. Mənimlə bir iranlı, pakistanlı, misirli, ərəb eyni şəriəti paylaşa bilər. Amma mədəniyyətimiz fərqlidir. Çünki mədəniyyəti formalaşdıran təkcə din deyil. Dinlə yanaşı, hər bir xalqın xarakterik, etnik xüsusiyyəti, aldığı təhsil, ailə dəyərləri var. Yaşadığı dövlətin qayda-qanunları var. Mədəniyyət və din birlikdə insanların, xalqların həyat tərzini formalaşdırır.

Hansısa ölkədə dini təhsil alır, şəriəti öyrənirəmsə, şəriətlə yanaşı, o ölkənin həyat tərzi, mədəniyyəti də mənə təbliğ olunur. Nəticədə azərbaycanlı dini təbliğat yolu ilə "iranlı"ya, "ərəb"ə çevrilir. Mən "iranlı, ərəb pisdir" - demirəm. Sadəcə "azərbaycanlılar başqa xalqın nümayəndələri kimi yaşamasınlar, düşünməsinlər" - deyirəm. Bizim məqsədimiz ondan ibarətdir ki, ənənəvi İslamı qoruyub saxlayaq. Ənənəvi İslam nədir? Azərbaycanlı dindar olsun, amma din adı altında "ərəb"ə, "fars"a, bir başqasına çevrilməsin.

Bunun üçün dini təhsil önəmlidir. Ona görə də biz xaricdə dini təhsili məqsədəuyğun saymırıq. Amma bunun inzibati yollarla qarşısını almaq mümkün deyil. Doğru variant ölkəmizdə dini təhsili xaricdə olan səviyyəyə qaldırmaq, hətta daha yüksək səviyyədə formalaşdırmaqdır. Bizdə 2018-ci ilə qədər ali dini təhsil ödənişli idi.

**- Səbəb nə idi?**

- Çünki Bakı İslam Universiteti dövlət universiteti deyildi və bu normal hal idi. Halbuki, İranda, ərəb ölkələrində dini təhsil nəinki pulsuzdur, hətta tələbələrə təqaüd verirlər. Azərbaycan 2018-ci ilə qədər dini təhsilin ödənişli olduğu yeganə ölkə idi. Cənab Prezident Azərbaycan İlahiyyat İnstitutunu yaratdı və institutda, belə deyim, hər şey pulsuzdur. Pulsuz təhsil, pulsuz dərs vəsaitləri, pulsuz qidalanma, pulsuz yataqxana, pulsuz geyim və təqaüd. Üstəlik, institutdan məzun olduğu təqdirdə, Dövlət Komitəsinin keçirdiyi müsahibədə uğur qazanarsa, təyinat alır və dövlət ona maddi dəstək göstərir. Bu, onu deməyə əsas verir ki, tələbə yaxşı təhsil alacağı, daha doğrusu, biz ona yaxşı təhsil verəcəyimiz təqdirdə, o, yaxşı kadr olacaq. Başqaları bunu gördükdə onlar üçün xaricdə dini təhsil almağın hansısa üstünlüyü olmayacaq. Nə maddi, nə mənəvi təsir nöqteyi-nəzərindən. Hazırda qarşımıza qoyduğumuz məqsəd AİI-də təhsilin keyfiyyətini daha da yaxşılaşdırmaqdır.

**- Gündüz müəllim, hazırda vəziyyət necədir? Həqiqətənmi xaricdə dini təhsil almağa yönəlik təlabat çoxdur? Yoxsa stabilləşmə gedir?**

- İllər keçdikcə stabilləşməyə doğru gedirik. AİI-də iki ixtisas var: İslamşünaslıq və Dinşünaslıq. İslamşünas yalnız məsciddə imam kimi fəaliyyət göstərə bilər. Yəni, o, din xadimi olacaq. Dinşünasa isə bütün dinlər tədris olunur. O, gələcəkdə araşdırmaçı, pedaqoq ola, dövlət işində işləyə bilər.

İslamşünaslıq ixtisasına qəbulda dini-psixoloji komissiya da var. Təkcə test kifayət deyil. Çünki islamşünas gələcəyin din xadimidir. Onun müəyyən dini-psixoloji durumu da yoxlanılmalıdır. İslamşünaslığa qəbula yeni başlayanda intellektual səviyyə çox aşağı idi. Amma getdikcə cəmiyyətimiz reallıqları gördükcə, İslamşünaslıq ixtisasının orta keçid balı qaneedici səviyyəyə gəlib çatıb. Gənclər məqsədli şəkildə İslamşünaslığı seçirlər. Bütün bunları gördükdən sonra müəyyən din bilgiləri olan şəxsə xaricdə dini təhsil almaq cəlbedici deyil, onun üçün AİI-də oxumaq kifayət edir. AİI-nin artıq magistratura, doktorantura pilləsi var. Məni bir azərbaycanlı kimi sevindirir ki, AİI-ni və BDU-nun İlahiyyat fakültəsini bitirmiş gənclərimiz var, onlar doktoranturaya da sənəd verirlər. Biz vaxtilə görürdük ki, Türkiyədə və ya hansısa başqa ölkələrdə məscid imamı elmlər doktorudur. Yəni məscidindəki din xadimi də alimdir. Düşünürdük ki, görəsən bizdə də nə vaxtsa belə olacaqmı? Təsəvvür edin ki, biz artıq bu prosesin astanasındayıq.

**- Ümumiyyətlə, ölkəmizdə hazırda dini mühit necədir?**

- Öncə vurğulayım ki, bizim bir nömrəli məqsədimiz, vəzifəmiz vicdan azadlığını təmin etməkdir. Bu gün Azərbaycan vicdan azadlığının təmin edilməsi, dinlərarası münasibətlər, tolerantlıq, multikulturalizm baxımından nümunəvi ölkə kimi qəbul edilir. Təsəvvür edin ki, Azərbaycanda tolerantlığın səviyyəsi təkcə bir azərbaycanlının qürurla dediyi fakt deyil, din sahəsi, vicdan azadlığı üzrə ekspertlərin etiraf etdikləri həqiqətdir. Məsələn, mən xatırlayıram, Vatikanın keçmiş dövlət katibi Tarcisio Bertone Azərbaycana səfər edəndə belə bir ifadə işlətmişdi ki, Azərbaycan Avropaya təkcə neft-qaz deyil, hətta tolerantlıq ixrac etməlidir. Eyni sözü ABŞ-nin keçmiş səfiri Enn Dörsidən də eşitmişdim. Yəni, bu gün Azərbaycanda dinlərarası münasibətlər, tolerantlıq, multikulturalizm dünya üçün nümunədir. Eyni zamanda, bilirsiniz ki, Azərbaycanda hər iki məzhəbin nümayəndələri - həm sünnilər, həm şiələr yaşayırlar. Məzhəblərarası münasibətlər baxımından da Azərbaycan nümunədir. Məsələn, əksər müsəlman ölkələrinə getsəniz, aydın görərsiniz ki, şiə məscidi ayrı, sünni məscidi ayrıdır. Azərbaycanda, çox şükür, məscidləri məzhəblərə görə bölməmişik. İstənilən şəxs istənilən vaxt, istənilən məscidə gedib ibadət edə bilər. Heç bir maneə yoxdur. Bu da Azərbaycan xalqının yüksək mədəniyyətinin təzahürüdür. Biz bunu qoruyub saxlamalıyıq. Əsas işimizdən biri də budur və bu da olmalıdır.

Azərbaycanın dini mühitinə xaricdən təsirləri, kənar təsirləri sıfıra endirmək bizim üçün əsas məqamlardan biridir. Çünki din sahəsində hər hansı xırda məsələ belə varsa, mütləq burada bir kənar təsir, ən azı kənar ideoloji müdaxilə var. Ona görə din sahəsinin sağlam qalması, Azərbaycan xalqının bu zənginliklərini qoruyub-saxlamağımız üçün kənar təsirləri sıfıra endirməliyik. Bu istiqamətdə digər aidiyyəti dövlət qurumları, o cümlədən hüquq mühafizə orqanları, QMİ ilə birgə kənar təsirləri azaldırıq, mənə elə gəlir ki, hazırda bu istiqamətdə uğurlarımız var. Əsas işimiz həm də yüksəkixtisaslı kadrlar yetişdirməkdir. O kadrlar ki din sahəsində milli kadr olacaqlar, onlar Azərbaycanın ziyalı kontingentinin tərkib hissəsinə çevriləcəklər. Azərbaycanlı kimi düşünəcək, azərbaycanlı kimi yaşayacaq və Azərbaycan üçün çalışacaqlar. Əsas bunlara nail olmaqdır. Biz din xadimləri təyin edərkən onlarla centlmen şərti kəsirik. Təyin etdiyimiz din xadiminə deyirik ki, sizdən istədiyimiz bircə şeydir: Allaha xatir, Allah rızası üçün millətə, ümmətə xidmət, Vətənə, dövlətə sədaqət. Sırf Allaha xatir, Allah rızası üçün ümmətə, millətə xidmət edən din xadimi Vətəninə, dövlətinə də sadiq olsa, bizim bu sahədə, demək olar ki, problemlərimiz qalmayacaq.

## TANIYAQ, TANIDAQ: MƏSCİDLƏRİMİZ

Azərbaycanın ən qədim şəhərlərindən olan Bərdədə ilk məscidin inşası VIII əsrin birinci yarısına təsadüf edir. Belə ki, ərəb xilafətinin sərkərdələrindən olan Məsləmə ibn Əbdülmalik Dərbəndə yürüş etməzdən əvvəl Bərdə şəhərini özünə iqamətgah seçmiş və burada məscid tikdirmək qərarına gəlmişdir. Buna səbəb həmin dövrdə Bərdə Cənubi Qafqazdan keçən mərkəzi ticarət yollarının üzərində yerləşdiyindən Yaxın və Orta Şərqin iri ticarət-sənətkarlıq mərkəzi kimi inkişaf etməsi idi. Mənbələrdə keçən məlumata əsasən, VII–IX əsrlərdə Bərdə şəhərinin eni və uzunluğu 5-6 km olmuş və ətrafına möhtəşəm qala divarları çəkilmişdir. Bu dövrdə 100 mindən çox sakini olan şəhərdə 4 böyük bazar, xüsusi sənətkarlıq məhəllələri, bir neçə hamam və Şərq memarlığı üslubunda tikilmiş çoxlu dini və ictimai binalar mövcud olmuşdur. Tarixi faktlar göstərir ki, IX-XII əsrlərdə Bərdə Azərbaycanın nəinki inzibati və dini, həm də iqtisadi mərkəzinə çevrilmişdir. XIII əsr coğrafiyaşünası Yaqut əl-Həməvi qeyd edir ki, Bərdə keçmişdə çox böyük şəhər olmuş, indi isə bu şəhərdə o böyüklükdən əsər-əlamət qalmamışdır. Qeyd edək ki, şəhər xarici basqınlar və digər səbəblərdən bir neçə dəfə öz yerini dəyişmək məcburiyyətində qaldığından həmin dövrə aid tarixi-dini abidələrinin böyük əksəriyyəti məhv olsa da, bəziləri bu günədək qorunub saxlanılmışdır. Bunlara nümunə kimi, VI əsrə aid köhnə şəhər divarlarının qalıqları, Tərtər çayı üzərində VII-IX əsrlərə aid iki körpü, 1322-ci ildə tikilmiş Bərdə türbəsi, XIV əsrə aid Axsadan baba türbəsi, VIII-IX əsrə aid İbrahim məscidi (İmamzadə) və qəbiristanlıq, XVII-XIX əsrlərə aid Şirvanlı hamamı, Güloğlular kəndində XVIII əsrə aid səkkizguşəli türbəni misal göstərə bilərik.



### Bərdə şəhəri İmamzadə kompleksi

Türbə və məsciddən ibarət olan kompleks bişmiş kərpicdən tikilmişdir. Kompleksin həyətlə birlikdə ümumi sahəsi 5600 kvadrat metrdir. Dörd minarədən ikisinin hündürlüyü 15, digər ikisinin hündürlüyü isə 12 metrdir. Damdan 3 metr hündürlükdə soğanvari günbəzi var. Türbə XIV əsrdə tikilmiş, XVIII əsrdə isə bura böyüdülərək məscidə çevrilmişdir. 1868-ci ildə bu yer memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən böyüdülərək məscid formasına salınır. Yerli sakinlər türbədə beşinci imam Məhəmməd Bağırın qız nəvəsi İsmayılın dəfn olunduğu bildirirlər.

Türbə-məscid kompleksi Səfəvi memarlığına xas olan üslubda tikilmişdir. Bunun nümunəsini Hindistanın Heydərabad və Özbəkistanın Buxara şəhərlərindəki çarminar, daha doğrusu Çahar, yəni dörd minarəli məscidlərdə görə bilərik. XVI əsrə aid olan bu abidələrdə də minarələr arasında qalan bütün məsafəni məscidin iri portalı tutur. Səfəvi memarlığında bu üsulla Məhəmməd peyğəmbərin "Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır" hədisinə işarə edilirdi. Lakin çarminar məscidlərdən fərqli olaraq Bərdə İmamzadəsində minarələr dörbucaqlı binanın deyil, portalın, yəni məscidin baştağının kənarlarında ucalır.

Sonda onu qeyd edək ki, türbə-məscid kompleksinin kərpiclərinin fiqurlu düzülüşü, tikintidə daşla kərpicin üzvi əlaqələndirilməsi və kaşıdan istifadə onda Bərdə türbəsi (1322-ci ildə tikilib) memarlığının təsirinin böyük olduğunu göstərir.



### Bərdə şəhər "Cümə" məscidi

Bərdə şəhərinin ən məşhur dini abidələrindən biri XX əsrin əvvəllərində inşa olunmuş "Cümə" məscididir. Məscidin qapısının üstündə hicri təqvimlə "1324" tarixi (miladi təqvimlə 1903-cü il) yazılsa da, bəzi mənbələrdə məscidin inşası daha qədim dövrlərə aid olduğu qeyd edilir.

Sovet dövründə Bərdə şəhər "Cümə" məsciddən əvvəl məktəb, sonra isə arxiv idarəsi kimi istifadə edilsə də, 1990-cı ildən yenidən öz təyinatı üzrə istifadə olunmağa başlanılmışdır. Məscidin binası bişmiş kərpiclə tikilmiş və ikimərtəbəlidir. Yardımçı otaqları və 168 kvadrat metr sahəsi olan ibadət zalı var. Qoşa minarələr damdan 5 metr hündürlükdədir. Binanın fasad hissəsində beş ağac dirək üzərində talvar var.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini iyun ayı ərzində də davam etdirib.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**2 iyun** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rəhim Tağıyev adına Masallı rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə Masallı rayonu Bəxtiyar Şiriyev adına Mollaoba kənd tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar Rayon İcra Hakimiyyəti (RİH), Rayon Polis Şöbəsi (RPŞ), Mərkəzi Aran Regional Təhsil İdarəsinin Ucar sektorluğu, Rayon Səhiyyə Şöbəsi, Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə Ucar şəhər 4 saylı tam orta məktəbində "Narkomaniya və onun psixoloji səbəbləri" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Gədəbəy RİH və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə Gədəbəy rayon Peşə Liseyində "Narkomaniyaya qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan Peşə məktəbinin birgə təşkilatçılığı ilə "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir rayonu Karrar qəsəbə "Seyid Əhməd" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Din və mənəvi dəyərlərin qorunmasında dini icmaların rolu" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə narkomaniyaya qarşı mübarizəyə həsr edilmiş maarifləndirmə tədbiri;



**5 iyun** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə M.Ə.Sabir adına 5 saylı tam orta məktəbdə "Dini radikalizmin mahiyyəti və fəsadları" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cənub Regional Mərkəzi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində rayonun Aşağı Nüvədi qəsəbə məktəbi və Lənkəran Peşə Liseyində;

**6 iyun** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Faxralı kənd tam orta məktəbində "Gəncləri yad dini ideologiyalardan qorumağın yolları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Göyçay RİH, Polis Şöbəsi və Mərkəzi Aran Regional Təhsil İdarəsinin Göyçay sektorluğunun birgə təşkilatçılığı ilə rayonun Kürdşaban kənd tam orta məktəbində "Dini radikalizm: insan hüquq və azadlıqlarına təhlükə kimi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Ombudsmanın Qərb Regional Mərkəzi, Goranboy RİH və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeliyində Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə "Bərabərlik hüququ və ayrı-seçkiliklə mübarizə" mövzusunda;

**7 iyun** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Füzuli rayonu Mahmudlu – 2 kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Folklor Evində "Məişət zorakılığı və dini radikalizm cəmiyyətin bəlasıdır" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Goranboy RİH, rayon GİI-nin birgə təşkilatçılığı ilə "Gənclərin yad təsirlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin önəmi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, Şəki-Zaqatala Regional Təhsil İdarəsi və "Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu Qazma kənd 1 nömrəli tam orta məktəbdə "15 İyun-Milli Qurtuluş Günü" münasibətilə; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Uşaq və Ailələrə Dəstək Mərkəzi və Hacıqabul rayonu Kürçülü kənd ümumi orta məktəbinin birgə təşkilatçılığı "Ailədə uşaqların cinsinə görə ayrı-seçkilik yolverilməzdir" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yevlax şəhər Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "İnsanların inanc azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Ağstafa RİH, Təhsil İdarəsi və GİI-nin birgə təşkilatçılığı ilə Ağstafa rayon Dağ Kəsəmən kənd 1 saylı tam orta məktəbində "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda;

**8 iyun** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar rayonu GİI və Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Tarixi abidələrin qorunmasında Heydər Əliyevin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Naftalanda "Erkən nikah, zərərli vərdişlər, dini radikalizm və onların fəsadları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH, Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Komissiyasının birgə təşkilatçılığı ilə "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və İmişli RİH-in birgə təşkilatçılığı ilə "Narkotiklərlə mübarizə günü" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Sabirabad RİH-in birgə təşkilatçılığı ilə 26 iyun Birləşmiş Millətlər Təşkilatının "Narkotiklərlə mübarizə günü" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH-in birgə təşkilatçılığı və Göyçay, Ucar, Kürdəmir, Zərdab rayonlarından olan din xadimlərinin iştirakı ilə Kürdəmir şəhər Heydər Əliyev Mərkəzində "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi, mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, GİI və İmişli rayon Heydər Əliyev mərkəzinin birgə təşkilatçılığı ilə "İnsanların inanc azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, RPŞ və Şəki-Zaqatala Regional Təhsil idarəsinin birgə təşkilatçılığı ilə Əliabad qəsəbəsi 1 №-li tam orta məktəbdə eyni mövzuda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Qusar RİH, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Şimal regional mərkəzi və Qusar MKS-in birgə təşkilatçılığı ilə eyni mövzuda; DQİDK, Binəqədi RİH və "Binəqədi Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində "İnsan Hüquqları: dini etiqad azadlığı" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH, Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə "İnsanların inanc azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda;

**9 iyun** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər N.Allahverdiyev adına 2 №-li tam orta məktəb-liseyində "15 İyun - Milli Qurtuluş Günü" münasibətilə; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz rayon GİI və Peşə məktəbinin birgə təşkilatçılığı ilə "İnsanların inanc azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və RPŞ-nin birgə təşkilatçılığı ilə Ucar şəhəri Heydər Əliyev Mərkəzində "Sağlamlığın qorunması hüququ" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "İnsan hüquqları çərçivəsində uşaq hüquqlarının qorunması" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad rayon Heydər Əliyev Mərkəzi və Sabirabad RİH-in birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində "İnsan hüquqları: dini etiqad azadlığı" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və GİI-nin birgə təşkilatçılığı ilə 5 saylı tam orta məktəbdə "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda;



**10 iyun** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərə sadiqlik və vətənpərvərlik hisslərinin gücləndirilməsində şəxsi heyətlə iş üzrə zabitlərin rolu" mövzusunda;

**12 iyun** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "İmamzadə" dini kompleksində "15 İyun-Milli Qurtuluş Günü" münasibətilə; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Turizm Kollecinin birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyin xilaskarı" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay şəhər "Mərkəz" məscidində "15 İyun - Milli Qurtuluş Günü" mövzusunda;

**13 iyun** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar şəhərində "Milli-mənəvi dəyərlərimizi qoruyaq" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və QMİ-nin Goranboy rayonu və Naftalan şəhəri üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev və milli dəyərlərimiz" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağdam RİH-in birgə təşkilatçılığı ilə Ağdam rayon Heydər Əliyev Mərkəzində "İnsan hüquqları aylığı" çərçivəsində "İnsanların inanc azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Qobustan RİH və rayon GİI-nin birgə təşkilatçılığı ilə Qobustan şəhər A.Qayıblı adına 3 saylı tam orta məktəbində "İnsanların inanc azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Şəmkir RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "İnsan hüquqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Gədəbəy RİH, Ombudsmanın Qərb Regional Mərkəzi və Gədəbəy Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda insan hüquqları" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Bərdə şəhər Asan Xidmət Mərkəzinin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində "İnsan hüquqları: dini etiqad azadlığı" mövzusunda;

**14 iyun** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yevlax Rayon 6-cı Hərbi Polis bölməsinin birgə təşkilatçılığı ilə rayonun Heydər Əliyev Mərkəzində "15 İyun - Milli Qurtuluş Günü" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Milli Qurtuluş günü: Azərbaycanın taleyini dəyişən zəfər tarixi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Gənclər Evi, şəhər 2 saylı ASAN Xidmət Mərkəzi və Ombudsmanın Qərb Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev və milli dəyərlərimiz" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi RİH-in birgə təşkilatçılığı ilə Tarix-Diyarşünaslıq Muzeyində "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ədliyyə

davamı səh. 13

# QISA-QISA

əvvəli səh. 12

Nazirliyi Penitensiar Xidməti arasında 2023-cü il üçün təsdiq edilmiş birgə Tədbirlər Planı çərçivəsində məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi, vicdan və dini etiqad azadlığının təmin olunması istiqamətində 4 saylı cəzaçəkmə müəssisəsi və Tərbiyə müəssisəsində "Xeyirxahlıq, yardım, mərhəmət və doğruluğun insan həyatında rolu" mövzusunda;

**20 iyun** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, YAP Zaqatala rayon təşkilatı, Gİİ və rayon N.Gəncəvi adına MKS-in birgə təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-ın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə 26 İyun - Silahlı Qüvvələr Günü ilə əlaqədar "Heydər Əliyev siyasəti ilə yaradılan Azərbaycan ordusu" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki şəhər mərkəzi "Cümə" məscidinin nəzdində fəaliyyət göstərən Şəki mərkəzi Qız Quran kursunun birgə təşkilatçılığı ilə "Qızların təhsildən yayındırılmasının hüquqi və mənəvi məsuliyyəti" mövzusunda;



**21 iyun** – DQİDK-ın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-ın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və QMİ-nin Zaqatala rayon Qazılığının birgə təşkilatçılığı ilə Zaqatala İslam Kollecində "Qurban bayramı öncəsi qarşıda duran vəzifələr"ə dair; Müdafiə Nazirliyinin Qusar rayonunda yerləşən "N" saylı hərbi hissəsində "Vətən və din müdafiəçisinin əxlaq kodeksi" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə 26 İyun-Silahlı Qüvvələr Günü münasibətilə "Böyük xalqın qüdrətli ordusunun qurucusu - Ulu Öndər Heydər Əliyev" mövzusunda;

**22 iyun** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon GİI-nin birgə təşkilatçılığı ilə Ağdaş rayonunda 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə "Gənclərimizin vətənpərvər ruhda tərbiyəsində Ordumuzun rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonu Heydər Əliyev Mərkəzində "Ulu Öndər Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda;

**23 iyun** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən rayon Tarix-Diyarşünaslıq muzeyi və Balakən rayonu "Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə Balakən rayon Tarix-Diyarşünaslıq muzeyində 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda;

**24 iyun** – DQİDK və Müdafiə Nazirliyinin 2023-cü il üçün birgə fəaliyyət planına əsasən DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və QMİ-nin Balakən rayon qazılığının birgə təşkilatçılığı ilə Qurban bayramı öncəsi qarşıda duran vəzifələrə dair; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Zərdab rayonu Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə "Erkən nikah, uşaq hüquqları və ailədaxili problemlər" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeliyində Goranboy rayon Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə "Erkən nikah və məişət zorakılığının yarada biləcəyi fəsadlar" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Erkən nikahın hüquqi əsasları və fəsadları" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Hacıqabul RİH-in birgə təşkilatçılığı ilə narkomaniyaya qarşı mübarizə mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Erkən nikahın hüquqi və mənəvi aspektləri" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Astara RİH və QMİ-nin Astara rayonu üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə 26 İyun-Silahlı Qüvvələr Günü münasibətilə; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "İntihar və özünəxəsarət İslam dinində qəbuledilməzdir" mövzusunda;

**25 iyun** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və QMİ-nin Qax rayon qazılığının birgə təşkilatçılığı ilə Qax rayon "Mərkəzi Cümə" məscidində Qurban bayramı ərəfəsində qarşıda duran vəzifələrə dair baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müəllimlər və şagirdlərin, hərbçilərin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə vətənpərvərlik ruhu aşılaması və gənclərin formalaşması baxımından mənəvi dəyərlərimizin önəmindən bəhs edilib. Onların dünyagörüşünə, mənəvi inkişafına mənfi təsir göstərən amillərin – dini radikalizm, erkən nikah və narkomaniyanın gənclərimizin gələcəyi üçün real təhlükələrindən danışılıb. Məktəblilərin bəşəri dəyərlərə hörmətlə yanaşmasında, mənəviyyatlı, dünyagörüşlü, vətənpərvər gənclər olaraq yetişməsində ailənin, məktəbin və ictimaiyyətin rolunun danılmaz olduğu vurğulanıb.

15 İyun - Milli Qurtuluş Günü münasibətilə təşkil olunan tədbirlərdə natiqlər mənəvi dəyərlərimizin qorunması və inkişafında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs ediblər. Azərbaycançılıq ideologiyası və onun mahiyyəti haqqında məlumat verərək bildiriblər ki, bu ideologiyanın əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün də xalqımız bu ideologiya ətrafında sıx birləşib. Ümummilli Liderin müstəqil Azərbaycan dövlətinin tari-



xində qoyduğu silinməz izlərdən geniş söhbət açan natiqlər bildiriblər ki, Azərbaycan adlı müstəqil dövlət bizə və bütün gələcək nəsillərə Ulu Öndərin ən böyük tarixi əmanətidir. Heydər Əliyevin zəngin dövlətçilik irsini yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Prezident İlham Əliyev xalq qarşısında verdiyi vədləri əməli işi ilə doğruldaraq daim insanların sevgisini və etimadını qazanıb.

Tədbirlərdə dini ekstremizmin yaratdığı fəsadlar və dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu mövzusunda geniş söhbətlər aparılıb. Çıxışlar zamanı qeyd edilib ki, Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra hər bir sahədə olduğu kimi ordu quruculuğu sahəsində də yeni bir inkişaf mərhələsinin əsasını qoyub. Bu müdrik siyasət Prezident cənab İlham Əliyev tərəfindən bugün də uğurla davam etdirilir. Həmçinin ordu quruculuğu siyasətinin təkmilləşdirilməsi, ölkənin müdafiəsi və hərbi kadrların hazırlığının təşkilinin dövlətimizin əsas prioritet fəaliyyət istiqamətlərindən biri olduğu vurğulanıb.

"İnsan Hüquqları Aylığı" çərçivəsində keçirilən maarifləndirici tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə "İnsan Hüquqları Günü" kimi qeyd olunduğu və hər il Ombudsmanının təşəbbüsü ilə mayın 18-dən iyunun 18-dək respublikamızda bu istiqamətdə tədbirlər təşkil olunduğu diqqətə çatdırılıb. Çıxışlarda insan hüquq və azadlıqları, bu sahədə qəbul edilmiş qanunlar, qərarlar və digər normativ aktlar, ölkəmizdə bu sahədə görülən işlər, həyata keçirilən layihələr haqqında tədbir iştirakçılarına məlumat verilib. İnsan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarına, eləcə də onların təhsil hüququna diqqət çəkilib. Həmçinin vurğulanıb ki, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir və dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Xüsusilə qeyd olunub ki, ölkəmizdə bütün dinlərin nümayəndələrinin hüquq, inanc və azadlığına hörmətlə yanaşılır.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan tədbirlər qarşılıqlı diskussiya şəklində baş tutub.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# DİNİ İCMA ÜZVLƏRİ VƏ DİN XADİMLƏRİ ÜÇÜN İCBARİ TİBBİ SIĞORTA BARƏDƏ MAARİFLƏNDİRMƏ TƏDBİRLƏRİ KEÇİRİLİB

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı və müvafiq yerli icra hakimiyyəti orqanlarının dəstəyi ilə dini icma üzvləri və din xadimləri üçün icbari tibbi sığorta barədə maarifləndirmə tədbirləri keçirilib.

Məqsəd din xadimləri vasitəsilə daha geniş əhali kütləsini səhiyyə sistemindəki yeni islahat olan icbari tibbi sığortanın tətbiqi, sığortaolunanların tibbi xidmətlərdən istifadə hüququ barədə məlumatlandırmağa nail olmaqdır.

Tədbirlərdə ümumilikdə 100-dən çox qonaq iştirak edib. Təlim iştirakçıları Bakının Sabunçu, Xəzər, Pirallahı, Nəsimi, Binəqədi, Qaradağ, Səbail, Yasamal və Nərimanov rayonlarından olan din xadimləri – axund, imam və dini icmaların üzvləri olub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri Amal Məlikov və Nuru İmanov icbari tibbi sığorta sisteminin əhali üçün faydalarından danışıblar. Dini icma üzvlərini sistemin üstünlüyü barədə məlumatlı olmağa və əhalinin bu sahədə maarifləndirilməsində yaxından iştirak etməyə çağırıblar.

Agentliyin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova tərəfindən iştirakçılara icbari tibbi sığorta sistemi, icbari tibbi sığorta haqları, xidmətlər zərfi ilə təminat verilən tibbi xidmətlər haqqında ətraflı məlumat verilib.

Bununla yanaşı, iştirakçılarla icbari tibbi sığorta sistemi barədə fikir mübadiləsi aparılıb və əhalinin maarifləndirilməsi yolları barədə qarşılıqlı müzakirələr edilib. Görüşlər zamanı əhalinin məlumatlılığının artırılması məqsədilə icbari tibbi sığorta ilə bağlı maarifləndirici çap məhsullarının məscidlərdə yerləşdirilməsi məsələsinə də toxunulub. Təlimlər sual-cavab sessiyası ilə yekunlaşıb.

Görüşlər zamanı təlim iştirakçılarının icbari tibbi sığortanın tətbiqi ilə bağlı müraciətləri dinlənilib və onların həlli istiqamətində müvafiq tədbirlər görülüb.

Qeyd edilib ki, növbəti təlimlər paytaxtın Suraxanı, Xətai və Nizami rayonlarında keçiriləcək.

Agentlik əhalinin icbari tibbi sığorta ilə bağlı maarifləndirilməsində göstərdikləri dəstəyə görə Nərimanov, Yasamal, Nizami Rayon İcra hakimiyyətlərinə və "Heydər Cümə" məscidinə təşəkkürünü bildirib.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**"Biləsuvar rayonu Xırmandalı kəndi "Əli Əkbər" məscidi" dini icması**

Qeydiyyat tarixi: 01 iyul 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 542-3

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hacıyev Nəcəf Hacıbaba oğlu, Novruzov Novruz Ağabala oğlu, Əliyev Yadulla Heydər oğlu, Ağamalıyev Alxas Əli oğlu, Nəcəfov Əhmədxan Yusub oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Ağayev İbrahim Uğur oğlu, Əliyev Mürsəl Filan oğlu, İbadov Səfalı Şölət oğlu, Məmmədov Gülməmməd Surxay oğlu, Əhmədov Zakir Mazan oğlu, İbayev Seyfəddin Şölət oğlu, Nəcəfov Əlizamin Əmirxan oğlu, İbadov Şəmsəddin Şölət oğlu, Kazımzadə Elvin Ramiz oğlu, Ağayev İsaq Böyükağa oğlu, Əliyev Ruslan Oqtay oğlu, Adıgözəlov Nazim İltifat oğlu, Məmmədov Elmin Şuriyyə oğlu, Fərruxzadə Fərrux Yalçın oğlu, Səfərov Yalçın Fərrux oğlu, Ələsgərov Şamil Alışanoviç, Qurbanov İkram Tərəhim oğlu, Hüseynov Rəşid Natiq oğlu, Baxşiyev Mübariz Müqabil oğlu, Baxşiyev Qoşqar Tarverdi oğlu, İmanov Nurlan Çərkəz oğlu, Muradlı Röya Dədəş oğlu, Abdullayev Baloğlan Kamran oğlu, Rüstəmov Mövlud Hacəli oğlu, Kazımov Qabil Gülağa oğlu, Baxşıyev Elton Sabir oğlu, Əzimov Məhərrəm Sərxoş oğlu, Tomarov Əyyub Rzaxan oğlu, Canalıyev Famil Əhəd oğlu, Adıgözəlov Nəsimi İltifat oğlu, Mirzəyev Əlizamin Səyadulla oğlu, Əhmədov Niyaməddin Qardaş oğlu, Həsənov Əlipaşa Baloğlan oğlu, Mirzəyev Nadir İbrahim oğlu, Əliyev Oqtay Allahşükür oğlu, Mirzəyev Fərman Ocaqqulu oğlu, Kazımov Rizvan Əzizulla oğlu, Sədirov Cavid Əliağa oğlu, İbadov Xalid Şölət oğlu, Mirzəyev Vəkil Fərman oğlu, Abdullayev Miri Abdulla oğlu, Baxşiyev Fariz Müqabil oğlu, Baxşiyev Müqabil Təvəkgül oğlu, Canaliyev Telman Əbil oğlu, Tomarov Əliqismət Əyyub oğlu, İmanov Bilal Əliqulu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 02 iyun 2023-cü il

**«Masallı rayonu Musaküçə kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 17 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 409

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abıyev Surac Allahşükür oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Həsənov Fizuli Məmmədyar oğlu, Feyzullayev Zamin Feyzulla oğlu, Məmmədov Sabir Adəm oğlu, Qulamov Şahkərəm İltimas oğlu, Həsənov Gülsəddin Şahverdi oğlu, Şahverdiyev Salman Vəli oğlu, Yunusov Səyavuş Rəcəb oğlu, Kazımzadə Mirkazım Mirsaqət oğlu, Qurbanov Fəxrəddin Nuru oğlu, Eynullayev Rafiq Məmmədağa oğlu, Eynullayev Elşən Məmmədağa oğlu, Əliyev Soltanağa Əliş oğlu, Qədirov Kərəm Əbilhəsən oğlu, Şükürov Fəxrəddin Şükür oğlu, Əliyev Vüqar Heydərəli oğlu, Kərimov Eldəniz Gülpaşa oğlu, Alışov Elşən Məmməd oğlu, Aslanov Afiq Mirzəkişi oğlu, Dadaşov Əliyusif Fərzulla oğlu, Şükürov Atabala Yusif oğlu, Kazımov Tural Mircavad oğlu, Nəcəfov Ağabala İbiş oğlu, Mislimov Gülsevər Mənsim oğlu, Qasımov Ərəstun Musur oğlu, Xancanov Ələddin Həsənağa oğlu, Rzayev Əmənulla Rza oğlu, Qulamov Əlixan Cəbrayıl oğlu, Abbasov Abbas Soltanağa oğlu, Şahverdiyev Bəbir Vəli oğlu, Aslanov Elşad Əbilhəsən oğlu, Cəfərov Mirəli Abas oğlu, Quliyev Rasim Məhərrəm oğlu, Quliyev İntizam Elşad oğlu, Dadaşov İbrahim Dadaş oğlu, Hüseynov Əşrəf Qəzənfər oğlu, İmanverdiyev Balayar Ağayar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 02 iyun 2023-cü il

**"Biləsuvar şəhəri "Əbülfəzl" məscidi" dini icması**

Qeydiyyat tarixi: 02 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 394

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Babayev Lətif Hüseynqulu oğlu, Həsənov Bayram İbiş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Gənciyev İbrahim Babaş oğlu, Məhərrəmov Vüqar Xanlar oğlu, Səfərov Yusif Mədət oğlu, Ələkbərov Asif Allahşükür oğlu, Gənciyev Ələsgər Babaş oğlu, Fətəliyev Fəxrəddin Yusif oğlu, Miriyev Füzuli Əlirza oğlu, Nəsirov Əlihüseyn Manaf oğlu, Məmmədov Tarverdi Allahverdi oğlu, Qəhrəmanov Bayram Əsədulla oğlu, Şirinov Elçin Müzəffər oğlu, Zəkiyev Zülfüqar Qulaməli oğlu, Ağayev Naib Məhəmməd oğlu, Gəncəliyev Ramil Ağaş oğlu, Məmmədov Rövşən Abbasəli oğlu, Xurşudov Hüseyn Əlimirzə oğlu, Məmmədov Bəhruz Mirzağa oğlu, Şirinov Zahir Əskər oğlu, Quliyev Cavanşir Məmməd oğlu, Xurşudov Musa Əlimirzə oğlu, Qüdrətov Əli Qulam oğlu, Səfərov İlham Mədət oğlu, Fətəliyev Sədrəddin Yusif oğlu, Qasımov Kərim Tapdıq oğlu, Abıyev Zaur Əziz oğlu, Əmənov Qurban Sultanməmməd oğlu, Məmmədov Mirzağa Nuruş oğlu, Quliyev Zaur Bəhi oğlu, Qasımov Etibar Kərim oğlu, Qasımov Elçin Kərim oğlu, Abıyev Emin Zaur oğlu, Miriyev Səbuhi Füzuli oğlu, Şirinov Samir Elçin oğlu, Qüdrətov Yusif Qulam oğlu, Məmmədov Tağı Allahverdi oğlu, Zəkiyev Vüqar Qulaməli oğlu, Ağalızadə Sabir Bəxtiyar oğlu, Nuriyev Nurəddin Bünyət oğlu, Həsənov Musa Kərəm oğlu, Qüdrətov Ramin Yusif oğlu, Məmmədov Dilqəm Mirzağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 iyun 2023-cü il

**"Qax rayonu Marsan kəndi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 01 iyul 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 542-25

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Əli Kazım oğlu, Şabanov Mustafa Eyvaz oğlu, Mənəfov Abdulmənəf Abdulla oğlu, Məmmədov Nəzir Nurməmməd oğlu, Mustafayev Aydın Mustafa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Osmanov Sakit Rəhim oğlu, Əhmədov İlyas Üzeyir oğlu, İsgəndərov Ramil Abdurahman oğlu, Mustafayev Asim Aydın oğlu, İmaməliyev Hafis Bəkir oğlu, Əliyev Elşad Həsənbala oğlu, Əliyev Sakin Elşad oğlu, Əliyeva İlhamə Yavər qızı, Əliyev Fərman Əli oğlu, Həmidov Hikmət Mahmud oğlu, Hacıyev Elvin Nadir oğlu, Hacıyev Nadir İsgəndər oğlu, Bayramov Vüqar Bəhram oğlu, Cavadova Səringül Kamal qızı, Əliyev Çingiz Saleh oğlu, Bayramova Fərqanə Bəhram qızı, Məmmədov Mehman Əlixan oğlu, Əliyeva Qənimə Fikrət qızı, Bayramov Bəhram Məhyəddin oğlu, Mirzəxanov Mirzəxan Teymur oğlu, Mirzəxanlı Nicat Teymur oğlu, Cavadzadə Təbriz Şərif oğlu, İsaqova Xəyalə Ramazan qızı, Məmmədov Sahib Sultan oğlu, Əliyev İlqar İbadullah oğlu, İskəndərova Əlifnaz Şərif qızı, Cavadov Famil Cavad oğlu, Dəmirli Pərviz Mətləb oğlu, İsgəndərov Rəsul Rəhim oğlu, Dəmirov Mətləb Xəlil oğlu, Qazıyev Elnur Fərman oğlu, İsmayılov Vasif Telman oğlu, İsgəndərov Həbibullah Oruc oğlu, Omarov Tərlan İlyas oğlu, Qaziyev Fərman Xəlil oğlu, Eminova Günay Afik qızı, Əliyeva Dostu Mustafa qızı, Məmmədova Qızılgül Camal qızı, Əliyev İlkin Elşad oğlu, Əliyev Həsən Elşad oğlu, İsaqova Gül Cəmil qızı, Əliyev Asim Ülfət oğlu, Həmidov Coşqun Fikrət oğlu, Şabanov Kənan Elşən oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Əliyev Əli Kazım oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

İsgəndərov Abdurahman Osman oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 14 iyun 2023-cü il

**"Masallı rayonu Ərkivan qəsəbəsi "Şeyx Səfi" məscidi" dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117C – 771

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Hüseynağa Qalamirzə oğlu, Kərimov Şakir Kərim oğlu, Qasımov Muğbil Museyib oğlu, Hilalov Əbülfəz Hidayət oğlu, Əliyev Dövlət Əvəz oğlu, Bəşirli Loğman Aydınəli oğlu, Nəzərov Mehman Həzi oğlu, İsmayılov Xanəli Bəşir oğlu, Nəzərova Xavər Əli qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Balayev Cavanşir Balabəy oğlu, Kazımov Elşən Haxverdi oğlu, Səfərov Əlvan Hüseynqulu oğlu, Əşrəfov Elşad Niftulla oğlu, Atakişiyev Namiq Balağa oğlu, Atakişiyeva Hökümə Salam qızı, Zülfüqarov Şərafət İman oğlu, Həzizadə Asim Rasim oğlu, Əliyeva Asudə Şükür qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 21 iyun 2023-cü il

**"Yardımlı rayonu Çayüzü kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 02 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 395

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Asdanov Böyükağa Həsən oğlu, Kazımov Mirzəli Səfər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əzimov Yunis Məzaim oğlu, Kazımov Tahir Mirzəli oğlu, Əzimov Müzayim Şükür oğlu, Əliyev Samir Gülağa oğlu, Əsmətov Arif Əbülağa oğlu, Nadirov Zair İmanqulu oğlu, Əlizadə Səadət Elman qızı, Rzayeva Kəmalə Vəli qızı, Poladov Elman Mirzəbala oğlu, Əliyeva İpək Ruşan qızı, Nadirov Burhan Qabil oğlu, Nadirova Xanım Ədalət qızı, Əliyev Elvin Akif oğlu, Əliyev Akif Hüseyn oğlu, Nəciyev Nizami Vəkil oğlu, Əliyev Xalid Gülağa oğlu, Nəciyev Rahib Ağalar oğlu, Nəciyev Emin Gülağa oğlu, Astanov Məhərrəm Soltan oğlu, Fətullayev Samir İbrahim oğlu, Abdiyev Vaqif Təzəxan oğlu, İsayeva Afaq İrzaqulu qızı, Sahratov Zəfər Xuddam oğlu, Ağayev Elyas Əhməd oğlu, İsmayılov Valeh Salman oğlu, Poladov İqbal Mirzəbala oğlu, İmanlı Zəhra Mehriban qızı, Nadirli Qumral Qabil qızı, Eyvazlı Aytac Sadıq qızı, Eyvazlı Əli Bakir oğlu, Rzayev Vüsal Adil oğlu, Əliyev Elman Ruşan oğlu, Eyvazova Mərziyə Əhməd qızı, Mahmudlu Fərid Şahin oğlu, Astanov Anar Böyügağa oğlu, Nəciyev Rahim Ağalar oğlu, Nəsirov Elsevər Əlibala oğlu, Hümbətov Qasım Hümbət oğlu, Aslanov Əlövsət Hüseynağa oğlu, Aslanlı Qismət Əlövsət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 21 iyun 2023-cü il

**"Gədəbəy şəhəri "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 21 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 171

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Rövşən Sahib oğlu, Hüseynov Nemət Qabil oğlu, Adamov Emin Elxan oğlu, Əliyev Rəşad Vahid oğlu, Qasımov Rövşən Ələddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Quliyev Elşən Musa oğlu, Hüseynov Fikrət Rəşid oğlu, İmanıyev Vaqif İsrəfil oğlu, Novruzova Kifayət Allahverdi qızı, Vəliyev Yusif Süleyman oğlu, Əliyev Ruslan Zirəddin oğlu, Aslanov Arif Dəmir oğlu, Murğuzov Zöhrab İsa oğlu, Hüseynov Ceyhun Misir oğlu, Tağıyev Asif Əli oğlu, Əliyev Yaşar Fərmayıl oğlu, İmanov Sadiq Arzu oğlu, Vəliyeva Müşgünaz Əhməd qızı, Mustafayev Nəhayət Rövşən oğlu, Nəsirov Müşfiq Bayram oğlu, Quliyeva Mətanət Məhərrəm qızı, İmanov Nahid Arzu oğlu, Tağıyev Elməddin Pənah oğlu, Mustafayeva Xalidə Akif qızı, Əliyev Samir Bayram oğlu, Hüseynova Günel Niyaz qızı, Rəsulzadə Turan Namiq

davamı səh. 15

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

əvvəli səh. 14

oğlu, Kərimov Ramiz Salman oğlu, Mustafayev Vüsal Söhbət oğlu, Kərimova Nailə Əşrəf qızı, Abdullayeva Elnarə İbrahim qızı, Məmmədov Etibar Cavad oğlu, Əliyev Nazim Vəli oğlu, Hüseynov Müşfiq Sakit oğlu, Məmmədova Rəxşəndə İslam qızı, Əliyeva Mətanət Ziraddin qızı, Hüseynova Kəmalə Şahin qızı, Əliyev Məhərrəm Kamal oğlu, İmanyev Dilqam İsrəfil oğlu, Orucova Yeganə İsa qızı, Hüseynova Elmira Yaqub qızı, Məmmədova Təranə Rəsul qızı, İmanıyev Elsevər Vaqif oğlu, Aslanova Diləfrüz Müzəffər qızı, Rəhimov Elçin Fərəməz oğlu, Vəliyev Vüqar Sabir oğlu, Məmmədov Ariz Abbas oğlu, Həsənova Tamilə Məmməd qızı, Həsənov Faiq Hüseyn oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 21 iyun 2023-cü il

**"Hacıqabul rayonu Kolanı kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 15 iyul 2010-cu il
Qeydiyyat Nº-si: 100110A3 – 434

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səfərov Nizami Xanoğlan oğlu, Səfərov Şəmsəddin Nəsirəddin oğlu, Babayev Ehtibar Səməndər oğlu, Novruzov Əli Musa oğlu, Ağaməmmədov Şahıverdi Allahverdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Ağaməmmədov Salam Allahverdi oğlu, Ağaməmmədov Cəlal Böyükağa oğlu, Dəmirov Mahir Əlabbas oğlu, Dostəliyev Vəfadar Möləm oğlu, Ağaməmmədov Rusif Böyükağa oğlu, Əsgərov Əliqismət Qulu oğlu, Ağaməmmədova Şəkər Saxverdi qızı, Quliyev Səfail Qara oğlu, Ağaməmmədova Sevinc Sadıq qızı, Ağaməmmədov Böyükağa Saxverdi oğlu, Səfərov Fəqani Nizami oğlu, Səfərov Naməddin Şəmsəddin oğlu, Əhədov Müşfiq Bağır oğlu, Səfərov Zakir Şikar oğlu, Ağaməmmədova Yaqut İslam qızı, Zeynalov Zeynal Əlizaman oğlu, Zeynalov Bulut Ağaverdi oğlu, Babayev İsrayıl Qəfər oğlu, Dostəliyev İbad Xalıq oğlu, Novruzov Vurğun Famil oğlu, Səfərov Əli Baba oğlu, Əhədov Nazim Sadıq oğlu, Mustafayev Saməddin Əmirxan oğlu, Ağaməmmədova Nənələr Allahverdi qızı, Əskərov Zaur Baladdaş oğlu, Babayev Tamiz Xıdır oğlu, Mirzəyev Mərahim Səyavuş oğlu, Piriyev İslam Xosi oğlu, Heydərov Şahin Şahalı oğlu, Dəmirova Fərqanə Saxıverdi qızı, Piriyev Hafiz Camaləddin oğlu, Vəliyev Mətləb Əflan oğlu, Səfərov İlqar Əvəz oğlu, Dostəliyev Hafiz Bəhlul oğlu, Mayılov Səbuhi Niyazəli oğlu, Məmmədov Zaur Baqdəsər oğlu, Babayev Novruz Ağaməmməd oğlu, Abaslı Çingiz Nəsirəddin oğlu, Vəliyev Telman Elman oğlu, Salahov Güleyman Ağaşirin oğlu, Səfərov Vüqar Əvəz oğlu, Ağaməmmədov Rəhman Saxverdi oğlu, Zeynalov Hikmət Əlizaman oğlu, Dəmirov Əlman Ağadəmir oğlu, Əliyev İltizam Əlibaba oğlu, Nuhbalayev Firudin Sabir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Ağaməmmədov Şahıverdi Allahverdi oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Ağaməmmədov Rusif Böyükağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 21 iyun 2023-cü il

**Ləğv**

**Bakı şəhəri Binəqədi rayonu Xocasən qəsəbə məscidi dini icması**

Qeydiyyat tarixi: 03.12.2007-ci il
Qeydiyyat Nº-si: 1307B1-421

"Bakı şəhəri Binəqədi rayonu Xocasən qəsəbə məscidi" dini icması təsisçilərinin 19.04.2023-cü il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 28 aprel 2023-cü ildə qeydə alınıb.

**Ağdaş rayonu Xınaxlı kəndi "Veysəl Qərani" ziyarətgahı**

Qeydiyyat tarixi: 24.06.2003-cü il
Qeydiyyat Nº-si: 195

Ağdaş rayonu Xınaxlı kəndi "Veysəl Qərani" ziyarətgahı dini qurumu təsisçilərinin 08.05.2023-cü il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 25 may 2023-cü ildə qeydə alınıb.

## KİLSƏ İBADƏTİ SÜNİ İNTELLEKT TƏRƏFİNDƏN HƏYATA KEÇİRİLİB



İyun ayının 9-da yüzlərlə alman protestantı Bavariya ərazisindəki Nürnberq şəhəri yaxınlığındakı Fürt şəhərində Müqəddəs Pavel Kafedralında keçirilən kilsə ayinində iştirak ediblər. İbadətin qeyri-adi, maraq doğuran cəhəti onun tamamilə süni intellekt tərəfindən keçirilməsi olub. Bu barədə "Associated Press" informasiya agentliyi xəbər yayıb.

İbadət Vyana Universitetinin ilahiyyatçı-filosofu Yonas Zimmerleyn tərəfindən ChatGPT-nin köməyi ilə yaradılıb.

ChatGPT-nin çat-botu qurbangahın üstündəki nəhəng ekranda saqqallı, qaradərili adamı imitasiya edib. O, cümə günü səhər tezdən eksperimental lüteran kilsə ayini üçün gələn 300-dən çox insana demək olar ki, tamamilə süni intellekt tərəfindən yaradılmış moizəni oxumağa başlayıb. Musiqi, moizə və xeyir-dualarla dolu olan ayin 40 dəqiqə davam edib.

Süni intellekt tərəfindən idarə olunan kilsə ayini Bavariyanın Nürnberq və qonşu Fürt şəhərlərində keçirilən protestant qurultayı tərkibindəki yüzlərlə tədbirdən biri idi və o qədər böyük maraq doğurub ki, insanlar moizəni dinləmək üçün XIX əsrə aid neo-qotik tikilinin qarşısında növbəyə düzülüblər.

Builki toplantı "İndi vaxtıdır" devizi altında keçirilib. Zimmerleyn çat-botdan moizə hazırlamağı xahiş edərkən ChatGPT-yə bu şüarı təklif edib.

"Mən süni intellektə dedim: Biz kilsə konqresindəyik, siz vaizsiniz... kilsə ayini necə görünəcək?", - deyə Zimmerleyn bildirib. O, həmçinin moizəyə məzmurların, eləcə də sonunda xeyir-duaların daxil edilməsini istəyib: "Nəticədə biz kifayət qədər sanballı kilsə ayini əldə edə bildik".

Vyana Universitetinin 29 yaşlı ilahiyyatçı-filosofu bildirib ki, o, din xadimlərini süni intellektlə əvəz etmək niyyətində deyil. Əksinə, o, süni intellektdən istifadəni yığıncaqlarında onlara kömək etmək üçün bir vasitə kimi görür. Zimmerleynin sözlərinə görə, bəzi keşişlər ilham üçün ədəbiyyata müraciət edirlər: "Onda niyə gələcək moizələrə ideyalar tapmaq üçün süni intellektə müraciət etməyək?"

Bununla belə, eksperimental kilsə ayini süni intellektin kilsəyə və ya dinə daxil edilməsinin sərhədlərini də göstərib. Belə ki, dindarlarla çat-bot arasında heç bir real qarşılıqlı əlaqə olmayıb, o, keşişin etdiyi kimi kilsəyə gələnlərin gülüşünə və ya hər hansı digər reaksiyasına cavab verə bilmir.

## BİZANSIN LİTURGİK MƏTNLƏRİNDƏ MƏRYƏMİN TƏSVİRİ İLƏ BAĞLI ARAŞDIRMA DƏRC OLUNUB

Kembric Universiteti Bizans liturgik mətnlərində Məryəmin təsviri ilə bağlı araşdırma dərc edib. Tədqiqat Bizans tarixinin ilk altı əsrində liturgik mətnlərdə Məryəmin təsvirinə həsr olunub.

Araşdırmada İsanın Anasını vəsf edən üç əsas ədəbi janra - ilahilərə, xütbələrə və agioqrafiyaya (xristian övliyalarının həyatını təsvir edən dini kitablar) diqqət yetirilib. Müəllif yazıçıların mesajlarını müxtəlif auditoriyalara çatdırma yollarını tədqiq edib. Məryəm Konstantinopol şəhərinin müdafiəçisi, bakirəliyini qoruyan Allahın Anası və Məsihin asket şagirdi kimi təsvir edilib. Vaizlər, ilahi və agioqrafiya qoşanlar çox vaxt Müqəddəs Məryəm obrazını paradoksal olaraq təbliğ ediblər, lakin bu paradoks İsanın Anasının təcəssüm etdirdiyi fundamental sirrə əsaslanırdı.

Tədqiqatın müəllifi Mari Kanninqem Harvard Universitetinin Müqayisəli din fakültəsində bakalavr təhsilini başa vurub. Sonra Birmingem Universitetində (İngiltərə) bizansşünaslıq üzrə magistr və doktorluq dissertasiyalarını müdafiə edib. 2006-cı ildən Nottingem Universitetində İlahiyyat və dini tədqiqatlar fakültəsində çalışır. Patristika və Qədim Kilsə tarixi üzrə doktoranturaya rəhbərlik edir.

Kanninqemin liturgik mətnlərdə Məryəm obrazı haqqındakı araşdırması "Cambridge University Press" saytında ictimaiyyətə təqdim olunub.

## UKRAYNA ALİ RADASI MİLAD BAYRAMININ YANVARIN 7-DƏ KEÇİRİLMƏSİNİN LƏĞVİ HAQQINDA QANUN QƏBUL EDƏCƏK



Ukrayna prezidenti Vladimir Zelenski Milad bayramının yanvarın 7-də qeyd olunmasının ləğvi ilə bağlı qanun layihəsini ölkə parlamentinə təqdim edib. Bundan əlavə, o, pravoslav bayramları - Rusun Vəftizi Günü və Bakirə Məryəmin Himayəsi Günü ilə üst-üstə düşdüyünə görə Dövlətçilik Günü və Müdafiəçilər Gününün tarixlərini 13 gün təxirə salmağı təklif edib.

Qanuna verilən izahatda qeyd edilir ki, "qanun layihəsinin məqsədi Rusiyanın Milad bayramının yanvarın 7-də keçirməsi mirasından imtina etmək və Milad bayramının qeyd olunma tarixini dekabrın 25-nə təyin etməkdir".

Bu il Ukrayna Yunan-Katolik Kilsəsi və Ukrayna Pravoslav Kilsəsi yeni stil təqvimə keçib. Keçən il dekabrın sonunda Ukrayna Pravoslav Kilsəsinin lideri Ukrayna Yunan-Katolik Kilsəsinin rəhbəri arxiyepiskop Svyatoslav (Şevçuk) ilə kilsə təqvimində islahatlar aparmaq üçün işçi qrupunun yaradılması barədə razılığa gəlib. Fevralın əvvəlində Ukrayna yunan katoliklərinin rəhbəri əksər Qərb kilsələrinin bayramlarını qeyd etdiyi yeni stil təqviminə keçdiyini elan edib.

Qanun layihəsinin mətnində Zelenski qeyd edib ki, dövlət təqvimindəki dəyişikliklər məhz Ukrayna Pravoslav Kilsəsi ilə bağlıdır.

CƏMİYYƏT və DİN
№ 06 (380) İYUN 2023-cü il

# GÜNORTA YATMAQ VƏRDİŞİ BEYİN ÖLÇÜSÜNÜN ARTMASINA TƏSİR EDİR



London Universitet Kolleci, Respublika Universiteti (Uruqvay) və Harvard Tibb Məktəbindən (ABŞ) olan alimlərdən ibarət beynəlxalq qrup mütəmadi günorta yuxusunun insanlarda ümumi beyin həcminin artmasına təsirini sübut edib. Onların fikrincə, günün birinci yarısında qısamüddətli yuxuya getmək yaşlandıqca koqnitiv funksiyaların qorunmasında amillərdən biri ola bilər.

Tədqiqatın nəticələri "Sleep Health" nəşrində dərc olunub.

Bundan əvvəlki araşdırmalar göstərib ki, günorta saatlarında yuxuya getmək bir sıra koqnitiv funksiyaların yerinə yetirilməsi üçün əlverişlidir: 5-15 dəqiqəlik yuxudan sonra insan növbəti 1-3 saat daha məhsuldar olur, 30 dəqiqəlik yuxudan sonra isə – əvvəl bir qədər əzgin ola bilər, lakin sonra iş qabiliyyəti gün ərzində artır. Bundan başqa, Altsheymer xəstəliyinin inkişaf riski ilə əlaqə aşkar olunub. Lakin bütün işlər, testlər və sorğular kimi, səbəb-nəticə əlaqəsinin klinik sübutu olmadan müşahidə xarakteri daşıyıb.

Yeni araşdırmada müəlliflər beyin sağlamlığının əyani göstərici olan onun həcmini əsas götürüblər. Miqyaslı təhlilin nəticələrinə görə, genetik olaraq günorta yuxusuna "proqramlaşdırılan" insanlar daha böyük beyin həcminə malik olublar. Bu, müntəzəm günorta yuxusunun yuxu çatışmazlığını və ya yuxusuzluğu kompensasiya edərək neyrodegenerasiyaya qarşı bir qədər qoruma təmin etdiyinə dair bir dəlil ola bilər. Hesablamalara görə, günorta yatmaq vərdişi olan insanların beyni gündüz yatmayanlara nisbətən təxminən 2,6–6,5 yaş cavandır.

# VALİDEYNLƏRLƏ MÜSBƏT MÜNASİBƏT QURMAQ UŞAQLARIN GƏLƏCƏYİ ÜÇÜN FAYDALIDIR



Aparılan yeni bir araşdırmaya görə, uşaqlıq və yeniyetməlik illərində valideynlərlə müsbət münasibətlərin qorunması yetkinlik dövründə ümumi sağlamlıq və düzgün psixologiyanın formalaşmasına kömək edir.

Araşdırma 14 il ərzində 12-17 yaş arası təxminən 15 min 700 yeniyetmə arasında aparılıb. Valideynin övladları ilə ünsiyyəti, məmnunluq, ana və ata arasında sevginin övlada hiss etdirilməsi, birlikdə keçirilən asudə vaxtın uşaqların gələcəyində yaratdığı müxtəlif faydaları aşkarlanıb.

Filadelfiya Uşaq Xəstəxanasının həkimi Kerol Ford yeniyetmələrlə valideynləri arasında güclü münasibətlərin yetkinlik dövründə onlara sağlamlıq, rifah və uğur gətirdiyini deyib: "Valideyn və yeniyetmə münasibətlərini gücləndirmək səyləri onların sağlamlığı və psixologiyasına əhəmiyyətli faydalar verə bilər".

Tədqiqatın nəticəsində ailə münasibətlərinin yüksək səviyyədə olduğunu bildirən uşaqların 20 və 30 yaşlarında ümumi sağlamlıqlarının daha yaxşı olduğu vurğulanıb. Onların gələcəkləri ilə bağlı daha optimist və daha sağlam romantik münasibətlərə malik olduqları müəyyən edilib. Eyni zamanda, həmin gənclər daha az stres və depressiya yaşayır, narkotik vasitələr, spirtli içkilər kimi pis vərdişlərdən uzaq olurlar.

K.Ford qeyd edib ki, uşaqların valideynləri arasında olan münasibətlər də onlarda gələcək haqqında təsəvvürlər yaradır və gördükləri rəftarı öz çevrələrində tətbiq edirlər. Tədqiqatın aparılmasında məqsəd valideynlər ilə əlaqələrin xüsusiyyətlərini müəyyənləşdirmək, aydın şəkildə müqayisə etmək və nəticələrə uyğun tövsiyələr verməkdir.

## Bakı və Abşeron üzrə namaz vaxtları (İyul - 2023)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:27 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:53 |
| 2 | 03:28 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:52 |
| 3 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 4 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 5 | 03:30 | 05:16 | 12:45 | 17:57 | 20:31 | 21:51 |
| 6 | 03:31 | 05:16 | 12:45 | 17:57 | 20:30 | 21:51 |
| 7 | 03:32 | 05:17 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 8 | 03:33 | 05:18 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 9 | 03:34 | 05:18 | 12:46 | 17:57 | 20:29 | 21:49 |
| 10 | 03:35 | 05:19 | 12:46 | 17:57 | 20:29 | 21:48 |
| 11 | 03:36 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:48 |
| 12 | 03:37 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:47 |
| 13 | 03:38 | 05:21 | 12:46 | 17:56 | 20:27 | 21:46 |
| 14 | 03:39 | 05:22 | 12:46 | 17:56 | 20:27 | 21:45 |
| 15 | 03:40 | 05:23 | 12:46 | 17:56 | 20:26 | 21:44 |
| 16 | 03:41 | 05:23 | 12:47 | 17:56 | 20:26 | 21:43 |
| 17 | 03:42 | 05:24 | 12:47 | 17:55 | 20:25 | 21:42 |
| 18 | 03:44 | 05:25 | 12:47 | 17:55 | 20:24 | 21:41 |
| 19 | 03:45 | 05:26 | 12:47 | 17:55 | 20:23 | 21:40 |
| 20 | 03:46 | 05:27 | 12:47 | 17:54 | 20:23 | 21:39 |
| 21 | 03:47 | 05:27 | 12:47 | 17:54 | 20:22 | 21:38 |
| 22 | 03:48 | 05:28 | 12:47 | 17:54 | 20:21 | 21:37 |
| 23 | 03:50 | 05:29 | 12:47 | 17:53 | 20:20 | 21:36 |
| 24 | 03:51 | 05:30 | 12:47 | 17:53 | 20:19 | 21:35 |
| 25 | 03:52 | 05:31 | 12:47 | 17:52 | 20:19 | 21:33 |
| 26 | 03:54 | 05:32 | 12:47 | 17:52 | 20:18 | 21:32 |
| 27 | 03:55 | 05:33 | 12:47 | 17:51 | 20:17 | 21:31 |
| 28 | 03:56 | 05:34 | 12:47 | 17:51 | 20:16 | 21:30 |
| 29 | 03:58 | 05:35 | 12:47 | 17:50 | 20:15 | 21:28 |
| 30 | 03:59 | 05:35 | 12:47 | 17:50 | 20:14 | 21:27 |
| 31 | 04:00 | 05:36 | 12:47 | 17:49 | 20:12 | 21:25 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# BƏƏ DÖRDGÜNLÜK İŞ HƏFTƏSİNƏ KEÇİR



Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) İnsan Resursları üzrə Federal Qurumunun müəyyən etdiyi yeni iş qaydalarına əsasən, bu ölkədə federal hökumət işçiləri dördgünlük iş həftəsinə keçmək hüququ qazanacaqlar.

"Emirates" informasiya agentliyi xəbər verir ki, iyulun 1-dən qüvvəyə minəcək yeni qaydalara əsasən, dövlət işçilərinin artıq təyin olunmuş həftəlik iş saatları dörd gün ərzində gündəlik 10 saatdan və ya həftədə 40 saatdan çox olmayacaq. Bu iş rejimi həm işçinin, həm də işəgötürənin razılığını tələb edir. Özəl sektorda çalışanlar üçün isə heç bir qayda müəyyən edilməyib.

Dördgünlük məhdud iş rejimi BƏƏ-də dövlət işçiləri üçün yeni İnsan Resursları qanununda nəzərdə tutulan bir sıra iş modellərdən biridir. Bu plan həm ölkə daxilində, həm də xaricdə çalışan hökumət işçilərinə uzaqdan işləməyə və hibrid işə də imkan verir.

BƏƏ-nin rəsmiləri bildiriblər ki, İnsan Resursları haqqında yeni qanun çevik iş modelləri hazırlamaq və dövlət qurumlarını daha səmərəli etmək üçün nəzərdə tutulub. Bu federal qərardan əvvəl Şarja Əmirliyi 2022-ci il yanvarın 1-dən işçilər və tələbələr üçün dördgünlük iş həftəsini tətbiq etməyə başlayıb.

Hazırda digər Körfəz ölkələri də daha qısa iş həftəsinin tətbiqi imkanlarını araşdırır. Bu ilin martında Səudiyyə Ərəbistanının İnsan Resursları və Sosial İnkişaf Nazirliyi iş həftəsini qısaltmaq üçün üçgünlük istirahət rejiminin tətbiqi imkanını nəzərdən keçirdiyini bildirib.

## Yadigar söz

***Sorn Kyerkeqor***

*Həyatı yalnız irəliyə baxaraq yaşamaq olar, onu anlamaq üçün isə ancaq geriyə baxmaq lazımdır.*

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894